QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Novruzun ikinci çərşənbəsi - Od çərşənbəsi




6

SƏS

№ 039 (7207)

4 mart 2025-ci il.
Qiymәti 60 qәpik

## Azərbaycan-Qazaxıstan münasibətləri: yeni hədəflər



2

*Prezident İlham Əliyev: "Azərbaycan və Qazaxıstan sosial-iqtisadi inkişaf sahəsində yaxşı göstəricilər nümayiş etdirən qardaş dövlətlərdir"*

# Tramp-Zelenski dueli və Avropa



3

## Böyük Qayıdış: Ağdərənin Həsənriz kəndinə ilk köç



9

## Ağlıma onlarla fikir gəlir...



8

## Zövqsüz KÜTLƏ!



5

## Hansı avtomobil modelləri bazarda daha ucuz qiymətə satılır?



16

## Sahurda hansı qidalar tox saxlayır?



7

# Azərbaycan-Qazaxıstan münasibətləri: yeni hədəflər

***Azərbaycan–Qazaxıstan əməkdaşlığı strateji tərəfdaşlıq münasibətləri əsasında inkişaf edir. Belə bir vəziyyət Xəzər hövzəsi regionu, Orta Asiya–Cənubi Qafqaz və Türk Dövlətləri Təşkilatı coğrafiyasında əhəmiyyətli dəyişikliklərə müsbət təsir göstərir. Bakı–Astana arasında mövcud səmimi əlaqələr, eyni zamanda, Orta Dəhliz layihəsinin inkişafını da sürətləndirir.***



*Prezident İlham Əliyev: "Azərbaycan və Qazaxıstan sosial-iqtisadi inkişaf sahəsində yaxşı göstəricilər nümayiş etdirən qardaş dövlətlərdir"*

Bununla yanaşı, hər iki ölkənin zəngin enerji daşıyıcıları potensialına malik olması da strateji tərəfdaşlıq münasibətlərini getdikcə möhkəmləndirir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 3-də Qazaxıstan Respublikasının Baş naziri Oljas Bektenovu qəbul etməsi əlaqələrin davamlılığına əsaslanır. Dövlətimizin başçısı bir çox sahələri əhatə edən münasibətlərimizin dinamik inkişafından məmnunluğunu bildirərək, Prezident Kasım-Jomart Tokayevlə həm Azərbaycanda, həm də Qazaxıstanda mütəmadi görüşlərini xatırladıb. Qazaxıstan Prezidentinin ötən il Azərbaycanda keçirilən COP29-da iştirakına görə bir daha minnətdarlığını bildirən Prezident İlham Əliyev bildirib ki, bu, Qazaxıstanın ölkəmizlə həmrəyliyini nümayiş etdirib, həmçinin konfransın uğurla yekunlaşmasına öz töhfəsini verib.

Dövlətimizin başçısı COP29-da bir sıra vacib məsələlərin razılaşdırıldığını, eyni zamanda, ölkələrimizi daha da yaxınlaşdıracaq layihələrin formalaşdırıldığını qeyd edib. Prezident İlham Əliyev Qazaxıstanın Baş nazirinin ölkəmizə səfəri zamanı vacib layihələrin ətraflı müzakirə olunacağına, əldə edilmiş razılıqların həyata keçiriləcəyinə və bütün istiqamətlər üzrə gələcəkdə də sıx əməkdaşlığın aparılacağına ümidvarlığını diqqətə catdırıb. Xalqlarımızın qardaş xalqlar olduğunu deyən dövlətimizin başçısı vurğulayıb ki, bu, qarşılıqlı münasibətlərimizin tarixi boyu dəfələrlə sübut olunub. Azərbaycanın və Qazaxıstanın sosial-iqtisadi inkişaf sahəsində yaxşı göstəricilər nümayiş etdirən qardaş dövlətlər olduğunu söyləyən Prezident İlham Əliyev beynəlxalq arenada, bölgəmizdə və daha geniş regionda ölkələrimizin vacib roluna toxunub.

Qəbula görə dövlətimizin başçısına minnətdarlığını ifadə edən Oljas Bektenov Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin salamlarını Prezident İlham Əliyevə çatdırıb.

ölkələrimiz arasında geniş hüquq-müqavilə bazası formalaşıb. İndiyədək Azərbaycanla Qazaxıstan arasında 150-yə yaxın sənəd imzalanıb. Bu normativ-hüquqi baza tədricən daha da genişlənir. Bu sənədlər arasında "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında dostluq münasibətləri və strateji tərəfdaşlıq haqqında Bəyannamə" (2004-cü il 1 mart, Astana), "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə" (2005-ci il 24 may, Bakı), "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" (2022-ci il 24 avqust, Bakı) xüsusi vurğulanmalıdır.

Regionda yaranmış yeni reallıqlar çərçivəsində nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində aparılan işlər və postmünaqişə dövrünün reallığı olan Zəngəzur dəhlizi Mərkəzi Asiya regionu, o cümlədən Qazaxıstan üçün də yeni fürsətlər yaradır. Ölkələrimizin maraqları bu məsələdə də üst-üstə düşür. Azərbaycan–Qazaxıstan əməkdaşlığı yeni inkişaf dövrünü yaşayır. "Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji münasibətlərin möhkəmləndirilməsi və müttəfiqlik qarşılıqlı fəaliyyətinin dərinləşdirilməsi haqqında Bəyannamə" iki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Siyasi, ticarət-iqtisadi, tranzit-nəqliyyat, enerji, kənd təsərrüfatı, mədəni-humanitar və digər sahələrdə əlaqələrin genişləndirilməsi istiqamətində sistemli layihələr gerçəkləşdirilir.

## ÖLKƏLƏRARASI TİCARƏT DÖVRİYYƏSİ 3 DƏFƏ ARTIB

Qazaxıstanın Baş naziri diqqət çəkib ki, Azərbaycan Prezidentinin də vurğuladığı kimi, ölkələrimiz arasında əlaqələr inkişaf edir və o, bu məsələdə Azərbaycan və Qazaxıstan prezidentlərinin etimada əsaslanan münasibətlərinin rolunu qeyd edib. Qazaxıstan və Azərbaycan hökumətləri hər iki ölkənin prezidentləri arasında əldə olunmuş razılaşmaların həyata keçirilməsi üçün səy göstərirlər. O, bu xüsusda dövlət başçılarının tapşırıqlarına uyğun olaraq, Transxəzər multimodal nəqliyyat marşrutunun inkişafı üzrə fəal iş apardıqlarını dedi və bu marşrutla yük axınının ötən il 60 faiz artdığını diqqətə çatdırıb.

Söhbət zamanı hərtərəfli əməkdaşlığımızın inkişafından məmnunluq ifadə olunub, son üç ildə ölkələrimiz arasında illik ticarət dövriyyəsinin təxminən 3 dəfə artdığı, nəqliyyat dəhlizləri üzrə yüklərin, o cümlədən tranzit yüklərin daşınmasında artımın davam etdiyi vurğulanıb. Azərbaycanda və Qazaxıstanda yaradılmış birgə investisiya fondu vasitəsilə investisiya layihələrinə dəstək verilməsi, neft-qaz sahəsində birgə layihələrin həyata keçirilməsi, o cümlədən Qazaxıstan neftinin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə daşınma həcminin artırılmasının perspektivləri ilə bağlı məsələlər müzakirə olunub. Həmçinin yaşıl enerji sahəsində COP29 çərçivəsində imzalanmış sualtı kabel xətti ilə Azərbaycan və Qazaxıstan energetika sisteminin birləşdirilməsi və yaşıl enerji sahəsində əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılıb.

Azərbaycan və Qazaxıstan çoxəsrlik dostluq ənənələrini nəinki qoruyub saxlamağa, genişləndirməyə, Azərbaycan-Qazaxıstan münasibətlərini strateji tərəfdaşlıq səviyyəsində inkişaf etdirməyə nail olub. Bu gün xarici siyasətdə iştirak etdiyimiz aparıcı beynəlxalq təşkilatlarda Qazaxıstan və Azərbaycan nümayəndələri fəal əməkdaşlıq edir və hər zaman bir-birini dəstəkləyir. Qazaxıstanın Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərində iştirakı iki ölkə arasında dostluğun ən bariz nümunələrindən biridir. Dövlət başçılarının qarşılıqlı səfərləri və imzalanan sənədlər bu əlaqələrin daha da dərinləşməsindən xəbər verir.

## TÜRKDİLLİ DÖVLƏTLƏR ARASINDA SƏMƏRƏLİ, ETİBARLI SİYASİ DİALOQ

Azərbaycan dövlət müstəqilliyini elan etdikdən sonra dünyaya yenidən açıldı, region və dünya dövlətləri, beynəlxalq təşkilatlarla əlaqələri daha da genişləndirdi, bir sıra qurumlarla yeni əlaqələr yaratdı. Heç şübhəsiz, Türk dünyasının bir araya gəlməsi ən mühüm məsələlərdən biri kimi diqqəti cəlb edir. Azərbaycanın türkdilli ölkələrlə, xalqlarla yaxınlaşması, eyni genetik, tarixi köklərə malik olduğumuz dövlətlərlə daha da yaxından təmas qurması üçün müxtəlif siyasi-iqtisadi, mədəni-humanitar platformalar meydana gəldi, iş birliyi rəsmiləşdirən müqavilələr imzalandı. Bu gün işğaldan azad olunmuş Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının bərpasında qardaş Qazaxıstan da öz töhfəsini verir. İşğaldan azad olunmuş Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin inşası Qazaxıstanın Azərbaycana qardaş köməyidir, bu, Qazaxıstanın Azərbaycana hədiyyəsidir və azad edilmiş ərazilərin bərpasına dəstəyidir.

Müasir dünyada türkdilli dövlətlər arasında qurulan əməkdaşlıq daha aydın görünür. Bu münasibətlərin güclənmiş və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərməsi əlbəttə ki, türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsi mühüm rol oynayır. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir.

Türkdilli ölkələrin vahid platformada birləşməsi ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. Müasir dünyada türkdilli dövlətlər arasında qurulan əməkdaşlıq daha aydın görünür. Bu münasibətlərin güclənmiş və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərməsi əlbəttə ki, türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsi mühüm rol oynayır. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Türkdilli ölkələrin vahid platformada birləşməsi ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır.

Görülən işlər deməyə əsas verir ki, Azərbaycan-Qazaxıstan əlaqələri qardaş dövlətlərin maraqları çərçivəsində inkişaf edərək əməkdaşlığın daha da dərinləşməsinə səbəb olacaqdır.

***ZÜMRÜD BAYRAMOVA***

# Tramp-Zelenski dueli və Avropa

## Rusiyadan ilk və rəsmi reaksiya

***"Zelenski ilə Tramp arasındakı insident "Ukraynadakı vəziyyəti nizamlamanın" nə qədər çətin olacağını göstərir. Rusiya prezidenti Vladimir Putin Ağ Evdə Ukrayna və ABŞ prezidentləri arasında mübahisədən "xəbərdardır". Bunu martın 3-də keçirdiyi brifinqdə Kremlin sözçüsü Dmitri Peskov deyib. Onun fikrincə, Vladimir Zelenski ilə Donald Tramp arasındakı bu insident "Ukraynadakı vəziyyəti nizama salmağın" nə qədər çətin olacağını göstərir.***



Ukrayna və Zelenski "sülh yox, müharibə istəyir. Bu vəziyyətdə Vaşinqtonun səyləri və Moskvanın hazırlığı açıq-aydın kifayət etməyəcək. Çox mühüm element çatışmır. Kreml sözçünün sözlərinə görə, Zelenski ilə Tramp arasında mübahisə, deyəsən, Ukrayna prezidentinin "tam diplomatik bacarıqlarının olmadığını" göstərirdi. Onun fikrincə, Vaşinqtonda Zelenskinin səfərindən sonra yaranan dadın aradan qaldırılması üçün "ciddi səylər" lazımdır. "Əgər Avropa sülh istəməyən Zelenskini danışıqlara inandıra bilsə, onu şərəfləndirə və tərifləyə bilsə", – Peskov yekunlaşdırıb.

Məlum olduğu kimi, fevralın 28-də Ağ Evin Oval kabinetində keçirilən görüşdə Tramp, J.D.Vens və Zelenski arasında mübahisə yaranıb. Tramp deyib ki, Vaşinqtonsuz Kiyevin "əlində kart" yoxdur



və Ukrayna köməyə görə minnətdar olmalıdır. Zelenski deyib ki, ABŞ-ın Ukraynaya nə edəcəyini söyləməyə haqqı yoxdur.

### Londonla Paris razılaşa bildilərmi?

Makron öz təklifində havada, dənizdə və enerji obyektlərində quru döyüşlərinə təsir etməyəcək müvəqqəti atəşkəs tələb edir. Britaniya və Fransa Fransa prezidenti Emmanuel Makronun təklif etdiyi Ukrayna və Rusiya arasında bir aylıq atəşkəs barədə razılığa gələ bilməyiblər. Bu barədə Britaniya Silahlı Qüvvələrinin mətbuat rəisi Lyuk Pollard bildirib. Həmçinin oxşar mövzunu BMF TV və BBC də tirajlayıb. Pollardın sözlərinə görə, "atəşkəs haqqında heç bir razılaşma əldə olunmayıb" və planın özü indiki formada London tərəfindən "tanınmır". O, müxtəlif variantlar üzərində şəxsi müzakirələrin aparıldığını, lakin Britaniyanın "davamlı sülh" gətirəcək həll yolunu inkişaf etdirməyə çalışdığını bildirib.

Makron həmçinin bəyan edib ki, ikinci mərhələdə Avropa qoşunları Ukraynaya yerləşdirilə bilər. Bu təşəbbüs martın 2-də Böyük Britaniyanın baş naziri Key Starmer tərəfindən Ukrayna prezidenti Vladimir Zelenskinin iştirakı ilə çağırılan Avropa liderlərinin Londonda keçirilən sammitindən əvvəl elan edilib. Böyük Britaniya hökuməti ölkələr arasında "dərin müdafiə əlaqələrinə" istinad edərək, ABŞ-ın istənilən sülh planına cəlb edilməsinin vacibliyini vurğulayıb. Bundan əvvəl məlum olub ki, Fransa prezidenti Emmanuel Makron Ukraynada sülhə nail olmaq üçün Böyük Britaniyanın baş naziri Key Starmerlə birgə plan hazırlayır. Yada salaq ki, Londonda Ukraynadakı vəziyyətə həsr olunmuş sammitdə 18 dövlət və hökumət başçısı, eləcə də beynəlxalq qurumların rəhbərləri iştirak edib.

### Fransanın bir aylıq atəşkəsi

Fransa prezidenti hesab edir ki, tam atəşkəsin təmin edilməsi çox çətin olacaq.



Avropa qoşunlarının Ukraynaya yeridilməsi hələlik planlaşdırılmır. Fransa prezidenti Emmanuel Makronun təklifi belədir ki, Ukrayna üçün bir ay müddətinə atəşkəs təklif olunacaq. Makron Avropanın Vaşinqton və Moskva arasında yeni razılaşma ilə əzilməməsini təmin etməyə çalışır. "Emmanuel Makron amerikalılar və ruslar arasında bağlanan atəşkəs sazişinə inanmır və əmindir ki, Putin hər şeydən əvvəl Ukraynanı alçaltmağa, xüsusən də onu demilitarizasiya etməklə onu alçaltmağa çalışacaq", – Le Figaro yazır. Beləliklə, Makron və Starmer Ukrayna ilə bağlı Fransa-Britaniya planı hazırlayıblar. Alternativ olaraq, onlar bir ay müddətinə "havada, dənizdə və enerji infrastrukturunda atəşkəs" təklif ediblər.

Makronun sözlərinə görə, belə planın üstünlüyü ona görə var ki, o, atəşkəs rejiminin icrasına nəzarət etməyə imkan verəcək.

Fransa prezidentinin özünün X mikrobloqunda yazdığı kimi, Böyük Britaniyada keçirilən Avropa liderlərinin sammitinin bütün iştirakçıları Ukraynada müharibəyə davamlı son qoyulmasına nail olmağa çalışırlar. "Londonda danışıqlar masası arxasında hamımız Ukraynada güclü və davamlı sülhün bərqərar olması və kollektiv təhlükəsizliyimizi təmin etmək üçün addımlar atmaqda qərarlıyıq", - deyə o bildirib.

### ABŞ və Ukrayna prezidentləri arasında münaqişə: səbəblər və nəticələr

Volodimir Zelenski ilə Donald Tramp arasında bütün dünyanın şahidi olduğu söylənilən ictimai mübahisə təkcə siyasi tokşoularda deyil, həm də tarix kitablarında uzun müddət yadda qalacaq. Bu, çətin dövrlərimizin çox parlaq nümunəsi oldu. Ağ Evdəki çirkin mənzərədən, nə deyərlər, müxtəlif nəticələr çıxarmaq olar və biri istisna olmaqla, hamısı mübahisəli olacaq: Qərbdə artıq Ukraynayönümlü vahid cəbhənin olmadığı aydındır. Tramp sadəcə olaraq bu şərtləri düşünmür. Qərb və xüsusilə Amerika mediasının Tramp və Zelenski arasında qalmaqallı danışıqlara verdiyi şərhlərdə eyni emosiya keçir – sürpriz. Ağ Evdəki görüşdən asılı olmayaraq, adam təəccüblənməyə bilməz: niyə belə oldu?

ABŞ prezidenti və onun vitse-prezidenti televiziya kameraları qarşısında yad dövlətin başçısını oğlan uşağı kimi danlayırlar. Tramp onu nankorluqda ittiham edir, az qala şəxsiləşir. Vens qışqırır ki, Zelenski Amerikada keçən ilki seçki kampaniyası zamanı nə isə edib və bu da demokratların əlinə keçib. Buna cavab olaraq Trampa Ukrayna liderinin "müharibə etmək iqtidarında olmadığını" xatırladıb. Zelenski bir neçə dəfə ABŞ prezidentini Rusiyanı qınamağa məcbur etməyə çalışıb. Belə görünür ki, Zelenski amerikalı həmkarları tərəfindən, Ağ Evdəki bu mübahisədən də göründüyü kimi, tamamilə lazımsız subyekt kimi qəbul edilib. Ukrayna prezidentinin "şəxsi məsələsi" araşdırılırıb.

Bu görüşün praktiki nəticəsi Ağ Evin mətbuat xidməti tərəfindən bir tərif kimi elan edilib. O, nadir torpaq metalları üzrə sazişin Ukrayna tərəfinin günahı ucbatından imzalanmadığını bildirib. Amma Kiyev və Vaşinqtonda deyildiyi kimi, Zelenski ABŞ-a məhz bu sənədin imzalanması üçün gəlmişdi.

Təbii ki, Ağ Evdəki insidenti Ukrayna prezidentinin ehtiyatsızlıqla Trampa etiraz etmək cəhdi nəticəsində yaranan ani, kortəbii emosiya partlayışı kimi dəyərləndirmək olar. Tramp əvvəldən də bəlli idi ki, Zelenskini sevmir, ilk prezidentliyi dövründə Amerikadaxili mübarizəsində Kiyevdən dəstək almağa çalışıb, lakin bunu heç vaxt ala bilməyib. Ancaq yığılmış qəzəb nə vaxtsa patlamalı idi və bu, təkcə Ağ Evin indiki rəhbərinin qisasçılığı ilə bağlı deyildi. Siyasətə kimin haradan gəldiyinin bir mənası var. Bura şou-biznesdən gələn insanların iki eqosunu əlavə edə bilərik. Heç vaxt unutmamalıyıq ki, amerikalılar üçün Tramp ilk növbədə televiziya personajıdır, məşhur şounun aparıcısı, qeybətçi köşə yazarı və filmlərdə epizodik rolların ifaçısı və yalnız bundan sonra biznesmendir. Zelenski isə əsas peşəsi ilə aktyordur. Və tale ona ən yaxşı rolu oynamaq şansı verəndə (bu vəziyyətdə Vətənin xilaskarı və şər qüvvələrə qarşı xeyirxah qüvvələrin dünya lideri) və minnətdar böyük tamaşaçı auditoriyası üçün o, aktyora yaraşdığı kimi, bundan zövqlə istifadə etdi.

Ardı Səh. 4

# Tramp-Zelenski dueli və Avropa



**Əvvəli-Səh-3**

Trampın dünya lideri rolunun yalnız onun üçün olduğuna inandığı yer budur. Digər iddiaçılar fayda göstəricilərinin bitdiyini anlamalıdırlar. Trampla razılığa gəlməyə ümid edən Avropa və Amerika siyasətçiləri bunu tez hiss etdilər. Ona yaltaqlanırlar, amma onunla mübahisə etmirlər. Amma Zelenski rolunu çox yaxşı oynadı. Trampa inadla etiraz edən və hətta Ağ Evin indiki rəhbərinin ilk prezidentlik dövründə keçmiş uğursuzluqlarını xatırladan yeganə şəxs oldu. Nəticə budur.

Duyğuların partlayışının bu versiyası nüanslara, ilk növbədə mübahisənin predmetinə - Ukraynanın nadir torpaq metallarından əldə edilən gəlirin bölünməsi haqqında razılaşmaya uyğun gəlmir. O, Trampın seçicilərinin əsas hissəsi olan hədəf auditoriyasında təəssürat yaratmağa qadirdir. O, vergi ödəyicilərinin pullarının naməlum ölkələri dəstəkləmək üçün israf edilməsindən çox qıcıqlanır. Tramp isə izah edir ki, o, yardımı, demək istədiyi kimi, sövdələşməyə çevirməyə hazırdır: Amerika büdcəsi pulu Ukraynanın möcüzəvi təbii sərvətlərindən gələn nəhəng gəlirlər şəklində geri alacaq. Razılaşmanın pozulması Trampa Kiyevi dəstəkləməyə davam etməkdə günahı yüksək səslə aradan qaldırmağa və bunu Bayden və Zelenskinin üzərinə atmağa imkan verəcək. Tramp administrasiyası Ukraynaya verdiyi pulların geri qaytarılmasını istəyir, Zelenski isə onların əvəzini ödəmək istəmir. Nəhayət, Ağ Evdəki insidentə dair izahatlar arasında Rusiya-Amerika danışıqlar prosesinin başlanması ilə bağlı olanlar da var.





Zelenskinin çıxışında nüanslar var, o, Moskvaya jest edir, ABŞ-ın Rusiyanı Çindən qoparmaq üçün qlobal plana sahib olduğunu deyir. Kreml isə dəfələrlə Zelenski ilə heç bir təmasın qurulmayacağı barədə açıqlamalar verib. Tramp açıq şəkildə deyir ki, Zelenskini o da sevmir, yəni “Ağ Ev onun vəzifədən getməsinə etiraz etmir və bu razılaşma bizə Moskva ilə konstruktiv dialoqu davam etdirməyə imkan verəcək”. Əks təfsir də var. Fərz edək ki, Ər-Riyaddakı görüşdən sonra Tramp Rusiya ilə danışmağın heç bir nəticə verməyəcəyinə qərar verib. Bir anda Amerika ictimaiyyətinə effektiv şəkildə “satılan” nəticəyə nail olmaq mümkün deyil. Sadəcə, Tramp uğursuzluğa görə günahı bəyənmədiyi Zelenskinin üzərinə ataraq, sülhməramlı səylərinə effektiv son qoymaq qərarına gəlib. ABŞ prezidentinin motivlərinin tezliklə aydınlaşacağı istisna edilmir. 78 yaşlı Tramp zamanın onun əleyhinə işlədiyini yaxşı bilir. Odur ki, Ağ Evdəki səhnənin mənasını daha aydın göstərəcək növbəti hərəkətlərdə gecikmə olmayacaq.

## Qərbdə Ukraynanı dəstəkləmək birliyi yoxdur

Ağ Evdə Donald Tramp və Vladimir Zelenski arasında qalmaqallı danışıqlar Ukrayna və Rusiya Federasiyası arasında münaqişə ilə bağlı bütün beynəlxalq münasibətlər kompleksi ilə bağlı tamamilə yeni situasiya yaradıb. ABŞ-ın hazırkı prezidentinin çox səslənən sülhməramlı planları ən azı təhlükə altındadır. Amerika mediası birbirinin ardınca yazır ki, Ağ Ev Ukraynaya yardımı dayandırmaq imkanını müzakirə edir. Belə şəraitdə ABŞ-ın Avropadakı müttəfiqləri çətin vəziyyətdə qaldılar. Ola bilsin ki, onlar Ukraynanı dəstəkləmək kimi bütün məsuliyyəti öz üzərlərinə götürməli olurlar, bunu etməyə hazır görünmürlər.

Vəziyyətin mürəkkəbliyini nəzərə alaraq, Amerika müttəfiqləri formallıqdan əl çəkməyə qərar veriblər. Zelenski ilə Tramp arasında danışıqların müzakirəsi üçün fövqəladə iclas nə Aİ, nə də NATO formatında keçirilməyib. Hər iki assosiasiyanın əsas dövlət başçıları bazar günü, martın 2-də Londona gəliblər. Böyük Britaniyanın baş naziri Keir Starmer Fransa, Almaniya, Danimarka, İtaliya, Hollandiya, Norveç, İspaniya, Polşa, Kanada, Finlandiya, İsveç, Çexiya və Rumıniya liderlərini bir araya toplayıb. İclasda NATO-nun baş katibi Mark Rutte, Avropa Komissiyasının sədri Ursula fon der Leyen və Avropa Şurasının sədri Antonio Kosta iştirak ediblər.

Müzakirənin nəticələrinin ən azı bütövlükdə mətbuata açıqlanmaması qərara alınıb. Göründüyü kimi, ümumi xəttin işlənib hazırlanması bir görüşün deyil, bir neçə görüşün işidir. Sürpriz və eyni zamanda Londonda bağlı qapılar arxasında müzakirə edilənlərin göstəricisi Türkiyənin xarici işlər naziri Hakan Fidanın görüşdə iştirakı olub. Bu yaxınlarda İstanbulda Rusiya Federasiyası ilə ABŞ arasında iki ölkənin səfirliklərinin işinin normallaşdırılmasına həsr olunmuş danışıqlar keçirilib. Türkiyə Trampın sülhməramlı təşəbbüsləri üçün danışıqlar platformalarından biri olmağa davam edə bilər - əgər təbii ki, Zelenski ilə ictimai qınaqdan sonra bu danışıqlar indi heç bir məna kəsb etmirsə. Fidanın Londonda Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın adından iştirak edib.

Zelenski də Londona dəvət olunub. ABŞ-ın müttəfiq ölkələrinin rəhbərləri Ağ Evdə dəqiq nə baş verdiyini şəxsən ondan öyrənmək istəyirdilər. Mətbuat Zelenskidən hər hansı təfərrüatlı izahat almayıb. Trampla danışıqlarından dərhal sonra Fox News-a verdiyi müsahibədə Ukrayna prezidenti ifadələrində kifayət qədər diqqətli olub. Zelenski əslində Ağ Ev rəhbəri ilə mübahisənin səbəbləri ilə bağlı öz versiyasını açıqlamayıb. Eyni zamanda, deyilənlərin öz tonu Ukraynanın münaqişəni dərinləşdirməyə çalışmadığından xəbər verib.

Ancaq Trampın komandasının üzvləri kifayət qədər çox şey söyləyiblər. Dövlət katibi Marko Rubio CNN-ə müsahibə verib, görünür, konkret olaraq izahatları üçün ABŞ-ın hazırkı prezidentinin xarici siyasətini tənqid edən kanal seçib. Amerika diplomatiyasının rəhbərinin sözlərindən aşağıdakı mənzərə ortaya çıxır. Zelenski özü nadir torpaq metalları ilə bağlı sazişi müzakirə etmək üçün Trampla görüşməyi xahiş edib. Dövlət başçıları səviyyəsində danışıqlara ehtiyac olmasa da, görüş baş tutub. Rubio iddia edib ki, Ukraynanın nadir torpaq metalları sövdələşməsinə dair sazişin bütün təfərrüatları müzakirə edilib və müzakirə edilib, amma bunu imzalamalı olan prezidentlərlə deyil. Dövlət katibinin sözləri ilə desək, Zelenski “diplomatiyanın necə işləmədiyi haqqında mühazirələr oxumağa” başlayıb və sülhün əldə olunmasına mane olan şeylər danışmağa başlayıb. Rubio öz emosiyasını gizlətmədən deyib ki, “bəzi insanların ona münasibətindən asılı olmayaraq Putinə hücum etmək” və Trampı Ukraynanın nöqteyi-nəzərini dəstəkləməyə “məcbur etmək” insanları “masa arxasına gətirməyəcək” və “sülh pozulacaq”.

Rubio və Zelenskinin müsahibələrini müqayisə edərək belə qənaətə gəlmək olar ki, ABŞ və Ukrayna hakimiyyəti iki prezident arasında mübahisə ucbatından uğursuzluğa düçar olmuş nadir torpaq metalları üzrə sazişin mənasını fərqli başa düşür. “Saziş Amerika ilə Ukraynanı iqtisadi cəhətdən əlaqələndirməli idi. Bu, öz növbəsində, Ukrayna üçün təhlükəsizliyin təminatıdır, çünki biz onun işlərində iştirak edəcəyik, çünki indi biz və maraqlarımız buradayıq”, - dövlət katibi bildirib. ABŞ-ın maliyyə naziri Scott Bessent Bloomberg ilə söhbətində demək olar ki, eyni fikirləri söyləyib. Lakin Zelenski Fox News-a verdiyi müsahibədə razılaşmanı Ukrayna üçün yalnız “təhlükəsizlik təminatlarına doğru ilk addım” adlandırıb.

Trampın Zelenskiyə qarşı qıcıqlanması o həddə çatıb ki, Rusiyanın “ekstremistlər və terrorçular siyahısı”nda olan respublikaçı senator Lindsey Graham açıq şəkildə bildirib ki, Ukrayna prezidenti “ya istefa verməli, ya da üzr istəməlidir”. Zelenski cavab verib ki, onun istefası ilə bağlı qərar vermək hüququ yalnız Ukrayna xalqına məxsusdur. Yəni, o, vəzifəsini tərk etmək fikrində deyil. Maraqlıdır ki, keçən ay həmin Qrem Zelenski ilə razılaşıb ki, NATO üzvlüyü Ukraynanın təhlükəsizliyinin təminatıdır. Senator hətta Rusiya sülhü pozarsa, Ukraynanın dərhal alyansa qəbul ediləcəyi barədə razılaşma təklif edib.

Avropa liderlərinin Londondakı görüşdən əvvəl verdiyi bəyanatlar göstərirdi ki, ABŞ müttəfiqləri Qərbdə birləşmiş Ukraynayönlü cəbhənin dağılmasından çox narahatdırlar, lakin bütövlükdə Zelenskidən imtina etmək niyyətində deyillər. Almaniya kansleri Olaf Scholz, xüsusilə, ”Ukrayna Almaniyaya və Avropaya arxalana bilər” deyib. Əslində Fransa prezidenti Emmanuel Makron, Polşanın baş naziri Donald Tusk, İspaniyanın baş naziri Pedro Sançes və bir çox başqa liderlər eyni şeyi deyiblər. Avropada Trampı tənqid etmək daha aşağı səviyyəli siyasətçilərə həvalə edilib.

Avropalıların Trampla bağlı səsləndirdiyi bütün açıqlamalardan seçilən Aİ-nin Xarici Əlaqələr və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaja Kallasın sözləridir: ”Bu gün aydın oldu ki, azad dünyanın yeni liderə ehtiyacı var”. Bəlkə də buna görə onu Londondakı görüşə dəvət etməyiblər.

**V.VƏLİYEV**



# Niyə oruc tutmalıyıq?

## Şəhər sakinlərinin münasibəti

**2025-ci ilin mart ayı Ramazan ayıdır. 11 ayın sultanı kimi qəbul edilən bu müqəddəs ayda oruc tutulur, niyyətlər qəbul olunur. Müsəlman dünyasının ən əlamətdar təqvimlərindən olan Ramazan ayı İslam dinində ən müqəddəs ay hesab edilir. Bu ayda inanclı insanlar İslam dininin öhdəliklərdən biri olan oruc tutmaqla Allah qarşısında öhdəliklərini yerinə yetirirlər. Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Bütün dünya müsəlmanları kimi Azərbaycanda da müsəlmanlar bu ayda oruc tuturlar. SİA mövzu ilə bağlı şəhər sakinləri arasında sorğu keçirib.**

**Şəhər sakini Səadət Mirzəyeva:** ”Dünyanın bütün ölkələrində ac insanlar var. Oruc tutmaq onlarla empatiya qurmaq üçün bizə lazımdır. Nəfsimizə sahib çıxmaq, tərbiyə etmək üçün oruc tutmalıyıq. Oruc tutmaq Ramazan ayının ən birinci öhdəliyidir. Mən də oruc tuturam. İnanıram ki, ayın sonuna qədər tuta bilərəm”.

**Şəhər sakini Fazilə Məmmədova:** ”Oruc tutmaq orqanizm üçün çox xeyirlidir. Bədəni saflaşdırır, Allah yanında insanların bütün günahlarının bağışlanmasına səbəb olur. Mərhəmətli, insanlara qayğı, hörmət, köməkdir. Orucluq üçün nə qədər desəm də, azdır”.

**Şəhər sakini Pərvanə Şahbazova:** ”Bizim mübarək Ramazan ayımız həm dini bayram olaraq qəbul olunur, həm də İslam ölkəsi olduğumuz üçün vacib buyrulmuş qaydadır. İnsanları mənəvi tərəfdən təmizliyə doğru səsləyir, həm

SORĞU



də xarici olaraq təmizləyir. Bir var ki, oruc tutaraq özümüzü təmizləyirik, bir də var ki, diet saxlayaraq təmizləyirik. Dinimizin gözəlliyidir ki, həm də istəristəməz sağlamlığımız üçün çox xeyirlidir”.

**Şəhər sakini aşıq Cahangir Quliyev:** ”Mən oruc tutmuram. Ramazan ayı insanlara onu öyrədir ki, nəfsini gözləsin. Sağlamlığa xeyri var. Allah heç kimə xəstəlik verməsin. Elə adam var ki, xəstədir, tuta bilmir. Ancaq biz müsəlmanıq. Oruc tutmaq da Peyğəmbərimizin bizə buyurduğu qaydadır. Ümumiyyətlə, biz dinimizə qulluq etsək, Allahımızı tanısaq, onun yolunda düz dayansaq, əlbəttə ki, işimiz də avand olar. Oruc da, namaz da hamısı müsəlman üçün buyurulub. Müsəlmanın da borcu odur ki, bunlara əməl etsin. Ona görə də, oruc tutanların Allah orucunu qəbul etsin, tuta bilməyənlərə də imkan versin ki, gələn ildən onlar da tuta bilsinlər”.

**Şəhər sakini Ülvi Babazadə:** ”Oruc tuturam. Ona görə oruc tutmalıyıq ki, birincisi, Allahın əmridir, ikincisi isə sağlamlığa xeyirlidir. Həm mənəvi, həm də fiziki təsirləri var. Ramazan ayının özünün məqsədi var. Ona görə də, bu ayda oruc tutmalıyıq”.

**Şəhər sakini Aytən Ağamalıyeva:** ”Orucu mənəvi təmizlik üçün tutmalıyıq. Həm də orqanizmin təmizlənməsi, sağlamlığı üçün də vacibdir. Nəfsimizi saxlamaq, ona sahib çıxa bilmək üçün lazımdır. İnsana hərtərəfli faydası var”.

**Şəhər sakini Günay Musayeva:** ”Biz orucu ürəyimizdən gəldiyi üçün tuturuq. Dini baxımdan mənasını bilmirəm. Ramazan insanlara mərhəmət, bir-birinə kömək etməyi öyrədir. Sağlamlığa da faydası var. Mən 6-7 ildir ki, oruc tuturam”.

**Şəhər sakini Həcər Həzrətquliyeva:** ”Ramazan ayı Allah, onun peyğəmbəri Məhəmməd Peyğəmbər tərəfindən buyurulub. Qurani-Kərim Allah tərəfindən endiriləndən sonra 40 gün Məhəmməd Peyğəmbər oruc tutmuşdu. Ondan bizə qaldı. Allahı tanımaq, ona sığınmaq, Allahı sevmək, tək Allahla olmaq bütün müsəlmanlara aiddir. Mən də orucam. Allah bütün oruc tutanların orucunu qəbul etsin”.

***Söylü Ağazadə***



# Zövqsüz KÜTLƏ!

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Son illər Azərbaycan efirlərində cəmiyyəti zobilləşdirən, düşünən insan əvəzinə zombi kütlə sayını durmadan çoxaltmaq istəyən “sosial proqramlar” payız göbələyi kimi durmadan artır. Efirlərimizi və cəmiyyətimizi zəbt edən bu xoşagəlməz, hətta mənəvi repressiya sayılan yeni vəziyyət gerçəkdən qorxuncdur. İnsanların zövqünü, səviyyə və dünyagörüşünü aşağı salan bu cür “yeniliklər” az qala hər gün qulağı və gözü “mazol edən” reklam kimi efir və sosial şəbəkələrdə bərq vurur. Xüsusilə “sosial verilişlər” adı altında bu xalqın min illik ailə institutunun, adət və ənənələrinin, azərbaycançılıq dəyərlərinin BİLƏRƏKDƏN məhv edilməsi sanki bu cür də olmalıymış kimi adi hal alıb gedir.***

Daha heç kim təəccüblənmir bu işlərə. Sanki yaşadığımız günlərdəki ən pis, qorxunc mənfilikləri deşiyin dibindən çıxarıb efilərdə “bəh-bəhlə” reklam edirlər. Ərini, uşaqlarını qoyub subay oğlanlara qaçanlar, qayınatası və qayınları ilə “yatıb-duranlar”, kişilik cinsiyyətini qadın olmaq üçün “qurban verən” cinsi azlıqlar, latın əlifbası ilə oxuyub-yazmağı olmayan, dünya ölkələrinin adlarını tələffüz edə bilməyənlər mənim xalqıma “nümunə” kimi təqdim edilir. Yeniyetmə və gənclərimə məhz “uğur hekayəsi” kimi bu cür aşağı səviyyəli, mənəviyyat yoxsulu olan qruplar təqdim edilir.

Milyonlarla azərbaycanlı vətəndaşın mənəvi zövqünü, dünyagörüşünü və gələcəyini məhv edən təbliğat terroru əsas efir siyasətinə çevrilib min təəssüf ki. İntellektual, bilik və bacarığı təbliğ edən, cəmiyyətin zövqünü formalaşdıran proqramlar artıq Azərbaycan efirləri üçün toz basmış arxivə çevrilir. Bu, həqiqətdir, bu, ən acı faktdır...

Və min dəfə yenə təəsdüflənəcəm ki, döş cibinə parça taxıb, zər-zibalı kostyumlarda poz verən bəzi ziyalılar efirlərdəki bu rəzil durum barədə bir kəlmə də ciddi mövqe ortaya qoymurlar. Ziyalılıq işıq deməkdir, ziyalılıq cəmiyyətin zəkası və düşünən beyni deməkdir. Belə görünür ki, bizim düşünən beyinlərimiz mənəviyyatımız üçün 1937-ci ildəki repressiyadan min dəfə təhlükəli olan efir terroruna hələ də səssiz qalmağı üstün tuturlar...

Cəmiyyəti bilə-bilə aşağı səviyyəli düşüncəyə sürükləmək, intellektual, düşündürücü efir əvəzinə, insanları manqurtlaşdıran şoular keçirmək, təhsil əvəzinə yaşlı insanların özlərini gülünc vəziyyətə saldıqları, kənd-kəsəkdə uşaqlarını evdə qoyub subay oğlanlara qoşulub qaçan gəlinləri, belələrinin dalınca studiyaya gəlib diz çökən biqeyrət ”kişiləri” reklam etmək. Məqsəd? - məqsəd KİŞİLİK qürurunun, qadın ar-namusunun, müqəddəs ailə dəyərlərinin yeniyetmə və gənc nəslin gözündən salınması siyasəti, başqa heç nə. Açıq şəkildə cəmiyyəti MANQURTLAŞDIRMAQ, vəssalam!

Bir neçə gün öncə Xaçmaz şəhərində hansısa mağazanın açılışında baş verənlər zövqsüz kütlə nümunəsi üçün gözəl fakt oldu. Fonoqramma ilə “oxuyan”, ara mahnıları ilə məşhurlaşan “müğənnilərə”, öz verilişlərində insanlara biədəblik təbliğ edən “aparıcılara” görə yüzlərlə insan bir-birini tapdalayaraq rəzalət bir vəziyyət yaratdılar. Bu, ilk növbədə zövqü korlanmış kütlənin acınacaqlı halı idi. Bir vaxtlar Azərbaycan cəmiyyətində “Qu gölü”nə, “Məhəbbət Əfsanəsi”nə tamaşa etmək üçün bilet növbəsinə dayanardılar. Bu gün isə aşağı səviyyəli “müğənniciklər”ə, it ağzından çıxan köhnə-kürüş paltarlara görə bir-birini bastalayan cəmiyyət var ortada. Zövqsüz KÜTLƏ, “bayramın” mübarək!...




# Novruzun ikinci çərşənbəsi - Od çərşənbəsi

***Xalqımız boz ayda qeyd edilən ikinci çərşənbəni - Od çərşənbəsini qeyd edir. Artıq bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir. Çərşənbələr Novruz bayramının əvəzolunmaz atributlarındandır. Bu dörd çərşənbənin qeyd olunmasının arxasında böyük həqiqətlər dayanır. Folklorşünas alimlərin fikrincə, bu çərşənbələr insanın həyata gəlişi və həyatın canlanması ilə əlaqədardır.***

Hər Çərşənbə təbiətin bir ünsürü ilə əlaqələndirilir. Novruz bayramına qədər dörd çərşənbə geniş şəkildə qeyd edilir ki, bunlar da su çərşənbəsi, od çərşənbəsi, yel çərşənbəsi, torpaq çərşənbəsidir. Bu çərşənbələr insanın 4 ünsürdən yaradılması ilə bağlı dini-mifik görüşləri simvollaşdırır. İlin axır çərşənbələrindən ikincisi xalq arasında Xəbərçi çərşənbə, Üskü çərşənbə, Addı çərşənbə kimi tanınan Od çərşənbəsidir. Bu çərşənbə qədim insanların Günəşə, oda olan inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayıb, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar.

Bu Çərşənbədə oda sitayiş edilir və onun şərəfinə şənliklər təşkil olunur. Günəş istisini arzulayan ulu babalarımız böyük bir tonqal qalayıb günəşin çıxmasını gözləyər, odun şərəfinə nəğmələr söyləyərdilər. Atəşpərəst etiqadlarına görə, "müqəddəs od"u insana ağac vermişdi. Ulu babalarımız bunun şərəfinə şənliklər keçirərdilər. İnsan bədənində və təbiətin özündə qorunub-saxlanan istilik də müqəddəs hesab olunurdu. Elə bu istiliyi qoruyub-saxlamaq şərəfinə şənliklər yaranmışdı. Od ilə istinin əsas mənbəyi isə Günəş hesab olunurdu. Onu çağıran Qodu nəğmələri xalq arasında geniş yayılar, günəşin istiliyi şərəfinə şənliklər düzənlənirdi.

İndi şər qarışanda hər həyətdə, yaxud məhəllədə tonqallar yandırılır və tonqal başına toplananların hamısı növbə ilə 3 dəfə alovun üstündən tullanırlar. Odla bağlı xeyli atalar sözü yaranıb: "Od imandır", "Od düşdüyü yeri yandırar" və s. İnanclara görə, ocağa yaxınlaşanda salam verərlər, od hisli olarsa, uzaqdan qonaq gələcəyinə işarədir. Əgər ocaq yananda səslənirsə, deməli, kimsə səndən danışır.

Digər çərşənbələrdə olduğu kimi, Od çərşənbəsində də qazanlar qaynamalı, ocağın üstü boş olmamalıdır. Bu çərşənbədə odun, tonqalın yandırılması həmin ilin isti, bərəkətli keçməsinə işarədir. Hələ qədim dövrlərdən insanlar odu qoruyub, oda hörmət ediblər.

Belə bir inanc da var ki, Od Çərşənbəsi günü, gün doğanda dünyaya gələn uşaq göyçək və pəhləvan olar. Oda sevgi və inam insanlarda o qədər güclü olub ki, hələ qədim dövrlərdən ona and içiblər. Alqış və qarğışlarda belə, Odu köməyə çağırıblar. Məsələn, "Od haqqı", "Oda düşəsən," "Ocağın odlu olsun", "Ocağın qazan görməsin" və s.

Qədim türk mifologiyasının özündə odla bağlı müxtəlif motivlər mövcud olmuşdur və Novruzdakı odla bağlı rituallar bu görüşlərlə bağlıdır. Ümumiyyətlə, bütün Çərşənbələrdə Od aparıcı motivdir. Bu, Od amilinin Novruzun mahiyyətində durmasına ən gözəl sübutdur.

Artıq bir neçə ildir ki, xalqımız öz ocağını BÜTÖV AZƏRBAYCANDA yandırır. Odumuz, alovumuz hər yana yayılacaq. Şuşamızın, Kəlbəcərin, Laçının və başqa məkanların uca dağlarında yandırılacaq odun alovu ürəyimizi isidəcək, ruhumuza Novruzun müjdəçisi kimi hopacaq. Qoy hər zaman əzəli torpağımız üzərindən alovlanan qığılcımlar bizi yaşatsın. Varlığımızla torpağımıza isti şəfəqlər ələnsin.

Od Çərşənbəniz MÜBARƏK!

***Zümrüd BAYRAMOVA***

# "Qarabağın cənnətə çevrilməsi üçün mühüm və sürətli işlər görülür"

***"Azərbaycan 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etsə də, çox təəssüflər olsun ki, onun şirinliyini dada bilmədi. 1987-ci ilin payızında ümummilli lider Heydər Əliyev sovet rəhbərliyindən uzaqlaşdırılandan sonra, Qarabağla bağlı erməni iddiaları artdı və ermənilər Azərbaycanın tarixi torpaqlarını ələ keçirmək üçün bir tərəfdən sovet rəhbərliyinin xeyir-duasını aldı, digər tərəfdən isə Ermənistanı müdafiə edən və ona havadarlıq edən qüvvələr hərbi birləşmələrinə hər cür köməklik göstərdi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.***




Onun sözlərinə görə, qısa müddət ərzində Azərbaycan torpaqlarının 20%-i işğal olundu. Beləliklə də, Azərbaycan Ermənistanla müharibəyə sürükləndi, amma çox təəssüflər olsun ki, Azərbaycanın o zaman hakimiyyətdə olan şəxsləri torpaqlarımızı müdafiə etmək iqtidarında deyildi. "Və bununda nəticəsi olaraq Azərbaycan 90-cı illərdə baş verən müharibədə məğlub oldu. Uzun illər ərzində Azərbaycanın apardığı mübarizə öz nəticəsini vermədi. Bunun səbəbi isə ondan ibarətdir ki, bütün dünyanın ən nüfuzlu təşkilatları, Ermənistanı müdafiə edir. Azərbaycanın isə haqq işini qəbul etmirdilər. Təbii ki, 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalq tərəfindən yenidən hakimiyyətə gəlməsiylə vətəndaş müharibəsini dayandırdı, qardaş qırğınının qarşısını aldı, qonşu dövlətlərlə balanslaşdırılmış siyasət apardı, Ermənistanla atəşkəsə nail olundu və beləliklə Azərbaycanı qoruyub saxlaya bildi. Amma Azərbaycanı qoruyub saxlansa da, amma Azərbaycanın dövlət suverenliyinə nail olmaq mümkün olmadı. Beləliklə də, Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti gənc, qətiyyətli, Azərbaycanın Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Beləliklə 30 il ərzində işğala məruz qalan Azərbaycan torpaqları işğaldan azad edildi. Düşmən məcburi şəkildə, danışıqsız təslim oldu və Azərbaycanın dövlət suverenliyi bərpa edildi. Beləliklə həm Azərbaycan torpaqları düşməndən azad olundu, həm düşmən məğlub edildi, həm də ki, Azərbaycan qalib dövlətlər sırasına çıxarıldı. Amma bu 30 il ərzində düşmən Qarabağ və Şərqi Zəngəzuru yerlə yeksan etmiş tarixi abidələrini, dini abidələrini, mədəniyhət abidələrini məhv etmişdir. Kəndləri, rayonları, şəhərləri məhv etmişdir. Ona görə də, 44 günlük Vətən Müharibəsindən sonra Azərbaycan insanı odlu silahını yerə qoydu və bərpa və quruculuq işlərinə başladı. Ona görə də, təkcə müharibə başa çatandan bu günə qədər Azərbaycanın dövlət başçısı və ölkənin birinci xanımı 100 dən artıq Qarabağa və Şərqi Zəngəzura səfərlər etmişdir. Bu səfərlərin hər biri yeni abidələrin, yeni evlərin, yeni yerlərin, yeni iş yerlərinin bünövrəsinin qoyulması ilə başlayır və təbii ki, həmin binalar, kəndlər, həmin obyektlərin açılışında ölkəmizin dövlət başçısı edir. Dövlət başçımızın sözləri ilə desək Qarabağ cənnətə döndərilməlidir. Bu işdə də sürətli addımlar atılır və sürətli olaraq işlər davam etdirilir".

***Ziya Hikmətoğlu***





# Sahurda hansı qidalar tox saxlayır?

*Kalorili qidalar istehlak edildikdən sonra uzun müddət insanlarda toxluq hissi yaradır. Bundan əlavə, bu istehlak edilən qidaların tərkibindəki protein və lif iştahı yatırmağa kömək edir. Kalorili qidalarla hazırlanan yeməklər həm bədənin enerji balansını təmin edir, həm də baş verə biləcək aclıq böhranlarının qarşısını alır. Uzun müddət toxluq hissi yaradan qidalara adətən kartof və yumurta daxildir.*





SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Sizi tox saxlayan qidalar hansılardır?

Sağlam bir həyatın təməlini yaratmaq üçün sizi tox saxlayan qidalar enerji saxlamaq və uzun müddətli toxluq təmin etmək üçün istifadə olunur. Xüsusilə Ramazan ayında oruc tutan insanlar maddələr mübadiləsini və qan şəkərini tarazlaşdırmaq üçün onları tox saxlayan qidalara üstünlük verir və sahurda bu qidaları ehtiva edən qidalardan istifadə edirlər.









**Bədəndə toxluq hissini artıran və insanı uzun müddət tox saxlayan qidaları aşağıdakı kimi sıralamaq olar:**

- Yulaf və tam buğda çörəyi kimi bütün taxıllar
- Lobya, noxud və mərcimək kimi quru paxlalılar
- Fındıq və badam kimi çərəzlər
- Balıq və qızılbalıq kimi dəniz məhsulları
- Çia, kətan və quinoa toxumu kimi taxıllar
- Brokoli, gül kələm və kələm kimi yaşıl tərəvəzlər
- yumurta
- Alma, xurma və avokado kimi meyvələr
- Qatıq, kefir və pendir kimi süd məhsulları
- Bütün taxıllar

Xüsusilə yulaf və tam buğda çörəyi kimi məhsullarda yüksək lif, zülal və karbohidratlar var ki, bu da həzmi yavaşlatmağa və toxluq hissi yaratmağa kömək edir.

### Quru paxlalılar

Mərci, lobya və noxud kimi quru paxlalılar sizi tox saxlayan qidalar arasındadır. Onların tərkibindəki yüksək lif və zülal qan şəkərinin yavaş-yavaş yüksəlməsini təmin edir və beləliklə, uzun müddət enerji buraxır.

### Fındıq, qoz və badam kimi çərəzlər

Badam, fındıq və qoz kimi qoz-fındıq enerji ilə zəngin, qida maddələri ilə zəngindir. Sağlam yağlar və zülallarla zəngin olmaq sizi tox tutmağa kömək edir.

Balıq və qızılbalıq kimi dəniz məhsulları

Balıq və qızılbalıq kimi dəniz məhsulları zülal və omeqa-3 yağ turşuları ilə zəngindir. Bu, onları toxluq hissini artıra biləcək qidalar halına gətirir.

### Chia, kətan, yulaf və quinoa toxumları

Çia, kətan və quinoa toxumları çoxlu lif ehtiva edir, yəni sizi daha uzun müddət tox saxlayır. Həm də daha çox protein ehtiva edir.

### Yaşıl yarpaqlı tərəvəzlər

Brokoli, gül kələm və kələm liflə zəngindir və çox doyurucu qidalardır. Onların kalorisi də azdır.

**Yumurta**

Yumurta zülalla zəngin qidadır və sizi uzun müddət tox saxlayan ən məşhur qidalardandır. Belə ki, oruclu dövrlərində, xüsusilə sahurda yumurta ilə hazırlanan məhsullara üstünlük verilir.

**Alma**

Liflə zəngin qidalardan biri olan alma uzun müddət mədədə qalaraq toxluq hissi yaradır. Bundan əlavə, tərkibində aşağı kalorili olduğu üçün sağlamlıq üçün çox faydalı qida kimi tanınır.

### Qatıq, kefir və pendir kimi süd məhsulları

Zülalla zəngin qidalar və qatıq, pendir və kefir kimi süd məhsulları sizi tox saxlamaqda çox təsirlidir. Bağırsaq sağlamlığı üçün çox əhəmiyyətli bir qida mənbəyi olan qatıq uzun müddət toxluq hissi yaradır. Səhərlər dənli bitkilərlə birlikdə istehlak edilə bilən qatığa da sağlam qida olduğu üçün üstünlük vermək olar.

**Xurma**

Tərkibindəki təbii şəkər sayəsində xurma qan şəkərinin sürətlə artmasının qarşısını alır. Bundan əlavə, tərkibində lif olduğu üçün toxluq hissi verən qidalar arasındadır və oruc tutanların tez-tez üstünlük verdiyi sahurda istehlak edilə bilər. Xurma da kalium ehtiva etdiyi üçün desertlərdə şəkər əvəzinə alternativ seçimdir.

**Avokado**

Xüsusilə orqanizmində toxluq hissi yaradaraq arıqlamaq istəyənlərin üstünlük verdiyi avokado, onları tox saxlayan qidalar arasındadır. Tərkibindəki yağ və su sayəsində uzun müddət aclıq hissini yatırmağa kömək edir.

### Ramazanda Sahurda sizi tox saxlayan qidalar hansılardır?

Sahurda pendir, pomidor, xiyar, qatıq, tam taxıllı çörək, çia və kətan toxumu, badam, fındıq, zeytun yağı kimi lif, zülal və sağlam yağlarla zəngin qidaların qəbulu gün ərzində toxluq hissini təmin edərək orucu asanlaşdıra bilər.

Sahurda sizi tox saxlayan qidaları aşağıdakı kimi sıralamaq olar:

- Paxlalılar, tam taxıllar, tərəvəzlər və meyvələr kimi yüksək lifli qidalar
- Yumurta, pendir və qatıq kimi zülalla zəngin qidalar
- Pomidor və xiyar
- Badam və fındıq kimi qoz-fındıq
- Bulgur, quinoa, çia toxumu və tam buğda çörəyi kimi glisemik indekslə zəngin qidalar

Bu qidalarla hazırlanan omlet, qaynadılmış yumurta, tam buğdalı sendviç və ya avokado salatı sahurda istehlak edildikdə toxluq hissini təmin edir. Sahurda doyurucu qidalar qəbul etməkdə məqsəd oruc tutmaqla gün ərzində itirilən enerjini bərpa etməkdir. Bundan əlavə, sahurda həddindən artıq şəkərli qidalar qəbul etməmək və zərərli yeməklərdən uzaq durmaq vacibdir. Əks halda bu məhsullar insanda qan laxtalanmasına səbəb ola bilər.

### Sizi tox saxlayan qidalar haqqında tez-tez verilən suallar

**Mədəni tox saxlayan nədir?**

Zülalla zəngin yumurta, pendir və qatıq istehlak etmək, sağlam toxumlardan istifadə etmək və lifli qidaları seçmək mədədə toxluq hissi keçirməyə kömək edəcək.

**Sahurda tox qalmaq üçün nə yemək lazımdır?**

Gün ərzində aclıqla yanaşı enerji səviyyələri də düşdüyü üçün sahurda sizi tox saxlayan qidalardan istifadə etmək və onlardan faydalanmaq vacibdir. Sahurda tox qalmaq üçün buğda çörəyi, omlet, qoz, badam kimi qoz-fındıq yeyilə bilər.

*Ayşən Vəli*

# "Oruc tutan insan Allah-təalaya çox yaxınlaşır"




"İmsaka - qədim Azərbaycan dilində "obaşdanlıq" deyirdilər. Ramazan ayında imsaka oyanıb, yemək yeyib, niyyət etmək dini



baxımdan vacib deyil, amma bəyənilən, müstəhəb sayılır". Bu sözləri SİA-ya açıqlamasında din xadimi Mircəfər Əyyubov deyib. Onun sözlərinə görə, tibbi baxımdan isə çox tövsiyə olunur: "Həmçinin dini baxımdan da tövsiyə olunur. Əgər insan bir neçə gün imsaka durmayıb, ac qarnına oruc tutsa, onun fəsadları yarana bilər və sonrakı günlərdə oruc tutmamağa məcbur ola bilər. Mədə-bağırsaq problemləri yarana bilər və yekunda oruc tutmamağa məhkum olar. Bu baxımdan imsaka oyanmaq tövsiyə olunur.

Orucun pozulma halları: istər halal, istər haram, istər yeməli, istərsə də yeməli olmayan qidalar, bütün içkiləri içmək, siqaret, qəlyan tüstüsünü, toz-torpağı udmaq orucu batil edir. Allahın, peyğəmbərlərin, imamların adından yalan söz demək də orucu batil edir. Eyni zamanda ailə münasibətləri də orucun batil olmasına səbəb olan amildir. Sübh azanına qədər qüsl almamaq, qəsdən qusma halları da orucun batil olmasına gətirib çıxarır. Bəzi fəqihlərin fətvasına görə başı suyun altına salmaq orucu batil edir. Əgər bir nəfər uzun yol çıxırsa, onun da orucu batil olur. Bir şərtlə ki, gedəcəyi yerdə 10 gündən az qalmaq məqsədi olsun. Əgər bir nəfər 10 gündən çox qalacağı bir yerə gedirsə, o orucunu tutacaq.

Oruc tutmaq o adamlara tövsiyə olunmur ki, oruc tutmaqla xəstəliyi şiddətlənir. Ya xəstəliyi dözülməz olacaq, ya sağalması çox çətin olacaq, bu adamlara oruc tutmaq tövsiyə olunmur. Hətta bəzi hallarda oruc tutmaq haram olur, bu baxır xəstəliyin səviyyəsinə. Xanımlar müəyyən günlərində onlar oruc tutmamalıdırlar. Sonra il boyu rahat şəkildə qəzalarını yerinə yetirilməlidirlər. Bu da xanımlara verilən bir güzəştdir, hökümdür.

Əgər qocalar oruc tutmaqla daha da zəifləyib əldən düşəcəklərsə, onlara da tövsiyə olunmur. İnsan özü də hiss etsə ki, oruc tuta bilər, həkimin tövsiyəsi mühüm deyil. Əgər görsə ki, həqiqətən də, oruc tutmağa qadir deyil, oruc tutmaya bilər. Bir şərtlə ki, bacardığı zaman qəzasını yerinə yetirsin".

"Oruc tutan insan Allah-təalaya çox yaxınlaşır. Orucluq mələklərə bənzəmək kimi bir şeydir. Oruc tutan insan səhərdən axşama kimi, hətta başqa aylarda halal olan şeylərdən də imtina edir. Bu da oruc tutan insanı ilahi bir bəndəyə çevirir. Ona görə, onun duaları tez qəbul olunur. Ramazan ayı xüsusi önəm kəsb edir. Hədislərə əsasən bütün səmavi kitablar Ramazan ayında nazil olmuşdur. Hətta İbrahim Peyğəmbərə nazil olan səhifələr, Davud Peyğəmbərə nazil olan Zəbur, Musa Peyğəmbərə nazil olan Tövrat, İsa Leyğəmbərə nazil olan İncil, nəhayət, Məhəmməd Peyğəmbərə nazil olan Qurani-Kərim məhz Ramazan ayında nazil olmuşdur. Qurani-Kərim qədr gecələrində nazil olmuşdur. Ona görə, bu ayda Quran oxumaq çox savab sayılır. Bir ayə Quran oxuyan adama bütöv Quranı bitirmiş adamın savabı verilir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



**Mətanət Məmmədova**

# Ağlıma onlarla fikir gəlir...

Məsələn, tüpürcək deyəndə ilk ağıla gələn nədir? Yox, mən sualı səhv qurdum. O üzdən də yenidən qurmağa çalışıram: yerdə tüpürcək görəndə ilk ağıla gələn nə olur? Mən işə gedib-gəldikcə yerdə sonsuz sayda tüpürcək gördüyüm üçün ağlıma onlarla fikir gəlir. Birincisi, rəhmətlik atamı və anamı ürəyimdə ittiham edirəm. Deyirəm axı bu nə tərbiyədir verib getmişiniz bizə ki, qız-qadın xeylağı başı aşağı olar. Yol-rizə çıxanda nəzərləri göylərdə gəzməz, ayağının altında olar. Nə üçün biz belə tərbiyə almalıydıq axı?

Nə olardı, başımız aşağı enmək əvəzinə, göylərdə dolaşardı ki, bəzi üzdəniraq kişilərin bu zəhrimarını görməzdik də. Qəribə tərbiyə verib gediblər bizə...

Sonra bu fikirdən daşınıram. Öz-özümə deyirəm ki, sən də nəyi qoyub, nəyi danışırsan. Hə, ağlıma başqa bir fikir gəlir. Düşünürəm ki, yerə tüpürən insanların yəqin ki, evdə-işdə üzlərinə tüpürənlər çox olur. Məsələn, yerə tüpürənlərin yüz faiz kişilər olduğunu nəzərə alsaq, elə kişilər var ki, bəli, arvadları gündə bir neçə dəfə üzlərinə tüpürür ki, niyə bunu almadın, niyə bunu qazana bilmədin. Onlar da arvadın qorxusundan onun üzünə yox, çıxıb bayırda yerə tüpürürlər. Sözsüz.

Hə, elə kişilər də var ki, işdə müdirlə sözü olur, hansısa məsələlərdə razılaşmırlar bir-biriləri ilə. Müdir danlayır, üzünə tüpürür. Bu kişi də nə etsin axı, o da tüpürməyəcək ki, əsəbindən çıxıb bayırda yerə tüpürür ki, əsəb içindən çıxsın.

Düşünürəm ki, kişilərin yerə tüpürmə səbəblərindən daha nə ola bilər ki, hər addım başında onunla rastlaşırıq, bir tikə yediyimiz burnumuzdan fitil-fitil tökülüb gedir. Elə bu anda düşünürəm ki, hə, siqaret. Bu siqaret onların tənəffüs yollarını edib iltihab anbarı. Öskürürlər, öskürürlər, nə etsinlər, tüpürməlidirlər də. Durub fikirləşməyəcəklər ki, mən bura tüpürdüm, axı bir azdan arxadan kimsə gəlib görəcək bunu.

Bir də fikirləşirəm ki, hə, kişilər var, küçəni də evi hesab edir. Bu, əslində böyük sevgidir ki, hər bir küçə öz evin, həyətin ola. Həqiqətən çoxlarımıza nəsib olmayan elə bir hisdir ki, bu... Küçəni evin kimi, evini küçən kimi sevəsən... Və belələri elə bu səbəbdən də içinin pisliyini küçədəki tək evdə də hara gəldi atır. Sözsüz.

Az qala yadımdan çıxmışdı. Kişilər də var ki, evdə uşağın-böyüyün bir səhvini görən kimi yerli-yersiz "tuu sizə",- deyib əsəbləşir. Ta belə olan halda onun küçədə yerə tüpürməsinə nə var ki... Arvadın, uşağın üzünə tüpürə bilir, küçəyə yox. Bu, belə kişilər üçün adiləşmiş haldır.

Yolboyu elə hey düşünürəm ki, daha nə? Daha nələr, hansı səbəblər ola bilər?.. Ağlıma yeni bir fikir gəlir. Pinti kişilər. Bəli, kişilər var ki, bayırdan evə gəldi, əllərini yumur, səhər yuxudan oyananda belə əl-üzünü yumağı artıq iş hesab edirlər. Evdə siqaret çəkib, külünü hara gəldi tökür, kötüyünü hara gəldi atırlar. Deyirlər ki, bəs arvad nədən yanadır, əziyyət çəksin yığışdırsın da. Axşamadək evdə oturub, amma mən səhərdən axşamadək işdə-gücdəyəm. Borcudur ki, çıxarıb hara gəldi atdığım corablarımı yığışdırsın, siqaret kötüklərini toplasın. Heç olmasa, bir iş görsün də bu xarabada. Hə, belə pinti kişilər küçəyə tüpürməyəndə hara tüpürəcəklər ki?..

Hə, bir də düşüncəsiz kişilər var. Düşüncəsiz, yox mədəniyyətsiz deyim. Çünki düşüncə yoxdursa, elə onda mədəniyyətsizlik ortaya çıxır da... Bəli, belə kişilər baxırsan ki, qadın-kişi bilmir, hamının yanında ağızlarına gələn sözü danışırlar. Bunu edənlər üçün küçədə hamının qarşısında hayxırıb tüpürmək nə qədər çətin ola bilər ki...

Yerdə addımbaşı rastlaşdığımız tüpürcəklə bağlı əsas fikrin ağlıma gəlməsi üçün çox sevindim. Tapdım, deyib ucadan çığırmaq, səsimi hər kəsin eşitməsini istədim. İstədim hər kəs eşitsin ki, bəli, yerə tüpürənlər mədəniyyətsiz kişilərdir. Utanmağın nə olduğunu bilməyən kişilər. Qadına əl qaldıran, evdəki səs-küyün qonşular tərəfindən eşidilməsini əsla özünə dərd etməyən, uşaqları ilə kobud rəftar edən, istədiyi yemək olmayanda evdə qan əkən. İş yerində, küçədə, nəqliyyatda özünü apara bilməyən kişilər var. Onlar küçəyə tüpürməyi də sadaladıqlarım kimi asanlıqla və utanmadan edirlər. Görürlər ki, qarşıdan qadın gəlir, çox böyük fəxrlə tüpürürlər. Bunu özlərinə şan bilirlər ki, bax, gör mən necə kişiyəm. Mən azadam, hətta küçəyə tüpürmək qədər azadam.

Hə, bundan sonra küçədə tüpürcəklə rastlaşanda çox düşünüb-daşınıb bunu kişilərin necə etdiyini anlamağa çalışmayın. Çünki fikirləşib tapdıq. Mədəniyyət. Elə bayaqdan bəri sadaladıqlarımın da hər biri mədəniyyətdən irəli gəlir. Lakin mədəniyyət məsələsi nədənsə axırda fikrimə gəldi. Sözsüz mədəniyyəti olan kişi elə bir səhv etməz ki, üzünə tüpürələr, o da əsəbindən yerə tüpürə.

Mədəniyyət... Çarə yoxdur, biz hər bayramda, hər doğum günlərində bəzi kişilərə mədəniyyət arzulayaq. Arzu edək ki, Allah-təala onlara azacıq mədəniyyət nəsib etsin. Etsin ki, özlərini küçədə apara bilsinlər. İçlərinin pisliyini küçələrə töküb camaatın yediyini burnundan gətirməsinlər, onları xəstə etməsinlər. Yoxsa əl içəcəyik ki, başı aşağı olmayaq. Onda görək necə, bundan xoşları gələcək KİŞİLƏRİN?..

# İynə ilə "böyüdülmüş" broyler, yoxsa kənd çolpası?



## *Qida tədqiqatçısı mühüm məqamlara aydınlıq gətirdi*

***"Əvvəlcə kənd toyuqlarının vəziyyətinə baxaq. Ayaqlı kənd toyuqları adətən təbii şəraitdə, açıq havada yetişdirilir və daha az sənaye yemi ilə qidalanır.***

Bu, onların ətinin dadını və qida dəyərini (məsələn, daha çox protein və az yağ) artıra bilər". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Onun sözlərinə görə, bu toyuqların yetişdirilməsi və satışı prosesində sanitariya şərtlərinə nəzarət zəif ola bilər. "Bazarlarda satılan kənd toyuqları tez-tez baytar yoxlamasından keçmir, bu da salmonella və ya digər bakterial infeksiyaların riskini artırır. Əgər toyuq düzgün kəsilib, təmizlənməyibsə və ya soyuducuda saxlanmayıbsa, istehlakı sağlamlıq üçün təhlükəli ola bilər. Broyler toyuqlara gəldikdə isə onlar sənaye şəraitində yetişdirilir, xüsusi yemlərlə (bəzən hormon və antibiotiklərlə) qidalanır və sürətli böyümə üçün optimallaşdırılır. Bu ətin daha yumşaq və ucuz olmasına səbəb olsa da, yemlərdəki kimyəvi maddələr və antibiotik qalıqları uzun müddətli istehlakda insan sağlamlığına zərər verə bilər (məsələn, antibiotik müqaviməti).

Lakin broyler toyuqlar adətən ciddi baytar nəzarəti altında kəsilir və supermarketlərdə standartlara uyğun soyudulmuş şəkildə satılır, bu da infeksiya riskini azaldır.

Ziyan baxımından broyler toyuqlar daha çox antibiotik və hormon riski daşıyır, kənd toyuqları isə sanitariya problemlərinə görə təhlükəli ola bilər. İnsanlar xüsusilə etibarlı mənbədən olmayan, yoxlanılmamış kənd toyuqlarından uzaq durmalıdırlar, çünki infeksiya riski daha yüksəkdir. Broyler toyuqlarda isə sertifikatlı və keyfiyyətə nəzarət olunan məhsullar seçilməlidir. Ümumiyyətlə hər iki halda ətin yaxşı bişirilməsi vacibdir, amma şəxsən mən təmizliyinə və mənşəyinə əmin olmadığımız kənd toyuğundan uzaq durmağı məsləhət görürəm".

***Ziya Hikmətoğlu***

# Böyük Qayıdış: Ağdərənin Həsənriz kəndinə ilk köç

***44** günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz işğal altında olan torpaqlarımızı azad etdi. Bu gün bu torpaqlara yeni həyat vermək üçün bütün qüvvələr səfərbər edilib, dağılan şəhər və kəndlərimizdə bərpa və quruculuq işləri davam etdirilir. Dövlətimiz öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur.*



İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunması, Prezident İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi, qəbul olunmuş digər sənədlər və həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edərək dövlətimizin Qarabağın və Şərqi Zəngəzurun dirçəlişində, əhalinin dayanıqlı məskunlaşmasında və davamlı iqtisadi inkişafın təmin olunmasında məqsədyönlülüyünün göstəricisidir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış davam edir.





## İLKİN MƏRHƏLƏDƏ KƏNDƏ 25 AİLƏ - 91 NƏFƏR KÖÇÜRÜLÜB

Ağdərə rayonunun yenidən qurulan Həsənriz kəndi də daimi sakinlərini qəbul etməyə artıq hazırdır. Martın 3-də respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Ağdərə rayonuna çatıb. Belə ki, Ağdərə rayonunun Həsənriz kəndinə ilk köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. İlk mərhələdə kəndə 25 ailə - 91 nəfər köçürülüb.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar . Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 40 minə yaxın insan yaşayır.

## RƏŞADƏTLİ ORDUMUZUN SARSIDICI ZƏRBƏSİ

1993-cü il iyulun 7-də Ermənistan silahlı qüvvələrinin hərbi birləşmələri Xankəndindən 62 kilometr şimalda yerləşən və ümumi ərazisi 1705 kvadratkilometr olan, həmçinin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olan beş inzibati rayondan



birini - Ağdərə rayonu və onun kəndlərini işğal etdilər. İşğala qədər Ağdərənin 14 kəndində (Sırxavənd, Bəşirlər, Qaraşlar, Qaralar, Baş Güneypəyə, Orta Güney, Xatınbəyli, Manikli, Tellibinə, Narınclar, Çərəktar, İmarət-Qərvənd, Umudlu, Yeni Qaralar) və Gəncxana sovxoz qəsəbəsində 14 mindən çox azərbaycanlı yaşamış və işğal zamanı rayonun bütün əhalisi öz doğma yurdlarından məcburən köçkün düşərək Azərbaycanın müxtəlif bölgələrində məskunlaşmışdılar. Əsasən dağlıq, şərq hissəsi isə düzənliklərdən ibarət olan Ağdərə faydalı qazıntılarla – polimetal yatağı, əhəngdaşı və gipslə zəngindir. Ağdərə Qarabağın mühüm kənd təsərrüfatı rayonlarından biridir. İqtisadiyyatında üzümçülük, taxılçılıq, tütünçülük və heyvandarlıq əsas yer tuturdu.

Azərbaycan Ordusunun şanlı qələbələrindən olan 2016-cı ilin Aprel döyüşləri nəticəsində Füzuli və Cəbrayıl rayonları ilə yanaşı, Ağdərə rayonunun da ərazisinin bir hissəsi işğaldan azad edildi. Rəşadətli Ordumuzun sarsıdıcı zərbəsi ilə Ağdərə rayonunun Talış və Seysulan kəndləri düşməndən təmizləndi.

Ağdərənin tarixi memarlıq abidələri və qədim körpüləri, müqəddəs ziyarətgahı Ulduztəpə piri də düşmən tapdağında qal-



mışdı. Memarlıq abidələrindən Vəngli kəndindəki məşhur Gəncəsər alban məbədi, Kolatağ kəndində müqəddəs İako məbədi (635-ci il), Talış kəndi yaxınlığında Urek məbədi (XII əsr), Tərtər çayının yuxarı axarında məbəd (XIII əsr), Hatəm Məlik qalası və bir çox qədim məbədlər və tarixən salınmış körpülər, eləcə də bütün abidələr Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və mənimsənilib.

Ermənistan Ağdərəni işğalda saxladığı dövrdə rayonun sərvətləri talan edərək beynəlxalq hüquqa zidd əməllər həyata keçirdi. Tərtər çayı üzərində salınmış Sərsəng su anbarı ilə əlaqədar yaranmış vəziyyətə görə ciddi narahatlıq Avropa Şurası Parlament Assambleyasının 2085 saylı qətnaməsində öz əksini tapdı. Həmin qətnamədə qəsdən süni ekoloji böhranın yaradılması "ekoloji təcavüz" kimi qiymətləndirildi, Sərsəng bəndinin baxımsızlığının xeyli sayda insan itkisi və yeni humanitar böhranla müşayiət olunan fəlakətlə nəticələnə biləcəyi vurğulandı. Bu qətnamədə Ermənistan silahlı qüvvələrinin Sərsəng bölgəsindən dərhal geri çəkilməsi, Ermənistan hakimiyyətinin su ehtiyatlarından münaqişə tərəflərinin yalnız birinin xeyrinə siyasi təsir, yaxud təzyiq vasitəsi kimi istifadə etməsini dayandırması tələb edildi.

## ANTİTERROR TƏDBİRLƏRİ NƏTİCƏSİNDƏ AĞDƏRƏ ŞƏHƏRİ SEPARATÇILARDAN TƏMİZLƏNDİ

2023-cü il sentyabrın 20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Ağdərə şəhəri separatçılardan təmizləndi. Prezident İlham Əliyev oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Dövlətimizin başçısı noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paraddakı çıxışında bununla bağlı dedi:"Oktyabrın 15-də Ağdərədə, Əsgəranda, Xocavənddə, Xocalıda və Xankəndidə mən Azərbaycan Bayrağını qaldırdım. Bundan böyük xoşbəxtlik ola bilməz–həm mənim üçün, həm sizin üçün, həm Azərbaycan xalqı üçün, həm də bütün dünya azərbaycanlıları üçün". Beləliklə, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın suverenliyi tam şəkildə bərpa edildi.

Bugünkü Azərbaycan reallıqları deməyə əsas verir ki, sabitlik, təhlükəsizlik və inkişaf 21 illik tariximizi xarakterizə edən əsas amillərdir. Əlbəttə ki, güclü dövlət və güclü Liderlik bizə Zəfərimizi yaşatdı. 30 ilə yaxın işğalda olan torpaqlarımız Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad olundu. Xalq-iqtidar birliyi, ordu quruculuğu burada önəmli faktor olduğunu qeyd etməliyik. Zəfər qazanmış Azərbaycanı daha uğurlu gələcək gözləyir. Qarabağ və Şərqi Zəngəzur yeni inkişaf dövrünü yaşayır."Dəmir Yumruğu"n yaratdığı yeni reallıqlarla hər kəs hesablaşmalıdır. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzuru yaşıl enerji bölgələri elan edib və həmin ərazilərin sosial-iqtisadi inkişafı ilə bağlı nəzərdə tutulan layihələr icra olunmaqdadır. Vurğulamaq yerinə düşər ki, Azərbaycanın yaratdığı yeni reallıqlar regional sülh, sabitlik, təhlükəsizlik baxımından strateji əhəmiyyət kəsb edir.

Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası nəticəsində nəzərdə tutulan hədəf göstəricilərinə uyğun olaraq 2026-cı ilədək ərazilərdə görüləcək işlər əhalinin təhlükəsizliyinin təmin olunmasına, eləcə də etibarlı, keyfiyyətli və dayanıqlı infrastrukturla təminatın həyata keçirilməsinə su, qaz, elektrik, istilik və s. infrastrukturun yenidən qurulmasına və s. yönəldilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Od çərşənbəsi - Üskü çərşənbə...




***"Novruz bayramı və onun tərkib hissəsi olan ilaxır çərşənbələrin bir əsrarəngizliyi də ondadır ki, bu zaman insan özünü təbiətin bir parçası kimi görür və təbiətlə eyniləşdirir. Elə ilaxır çərşənbələrin adlandırıldığı təbiət ünsürlərinin də hərəsində insan özünü bir cürə görür, bu ünsürlərə tapınmaqla təbiətlə canlı təmasa daxil olur". Bu sözləri SİA-ya açıqlamasında filologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi Şakir Albalıyev deyib.***



## MÜNASİBƏT

O bildirib ki, od çərşənbəsində də insan həm oda müqəddəs baxışlarını ortaya qoyub, həm də odun özü ilə təmasda olmaqla ondan faydalanıb, həm də ki, lazım gəldikdə odun özünü də himayə edib, müqəddəs bildiyi odu qoruyub saxlamağı özünə borc hesab edib: "Professor Azad Nəbiyev yazır: "İlaxır çərşənbələrin ikincisi od çərşənbəsidir. Buna xalq arasında "Üskü çərşənbə", "Üskü gecəsi", "İkinci çərşənbə", yaxud da əzizləmə məqsədilə "Addı çərşənbə" də deyilir. Od çərşənbəsi Günəşə, oda, odu qoruyub saxlamaq inamına tapınma ilə əlaqədar yaranıb. Zərdüşt görüşlərindən hələ çox-çox əvvəl insanlar təbiəti canlandıran, torpağı isidən günəşi, onu yerdəki rəmzi olan odu təsəvvürlərində rəmzləşdiriblər. Belə bir etiqad yaranmışdı ki, insanlar günəşi və odu nə qədər əzizləsələr, oxşasalar, təbiət o qədər tez isinər, adamlara xoşbəxtlik gətirər".

Od çərşənbəsi adından da göründüyü kimi, odla, istiliklə bağlı olub, insanların oda inamlarını ifadə edib. Odun, işığın, enerjinin kainatdakı ən böyük və tükənməz mənbəyi isə Günəşdir. Günəş isə göyü də, yeri də (hələ desən, yerin altını da) isindirib, qızdırıb həyat enerjisi ilə külli-kainata dirilik bəxş edir. Təbiətə və təbiətin ayrılmaz parçası olan insanlara həyat enerjisi – dirilik verən odun real həyatdakı funksiyası qədim mifik görüşlərdə də öz inikasını tapıb. Mirçe Eliadenin aşağıdakı fikirləri də odun müqəddəs həyatvericilik missiyasını göstərir: "Od hansı təbiətə malik olmasından asılı olmayaraq, insanı "ruha" çevirir: məhz buna görə də şamanlar "odun sahibi" hesab olunur və közərmiş kömür onları yandırmır".

Odun yandırıb məhv etmək təbiəti olsa da, közərmiş kömür belə şamanları yandırmadığından, odun sahibi sayılırlar; çünki müqəddəs od insanı ekstaz halına salır, başqa sözlə, insanı ruha çevirir. Odun insanı ruha çevirməsi isə həm də insana mənəvi güc - enerji verməsi deməkdir. Bu mənada odun enerji – həyat mənbəyi olması özünü bu tərəfdən də nümayiş etdirir. Onu da qeyd edim ki, çərşənbə ocağının (eləcə də Novruz tonqalının) odu mifik şüurda müqəddəsliyi təmsil etdiyindən heç vaxt dağıdıcı fəsadlar (yanğın fəlakəti və s.) törətmir, həmçinin bu od heç vaxt od olub insanları yandırmır, əksinə, insanları mənən yüngülləşdirir. Belə ki, uşaq vaxtlarımda kənddə-kəsəkdə gur çərşənbə tonqalları çatılanda, düzü-dünyanı, yəni bütün kəndi çərşənbə yalavları (alovları) bürüyəndə, adama elə gələrdi ki, bu saat hər yan od tutub yanacaq, külə dönəcək. Amma nəticədə heç nəyə və heç kəsə heç zad olmurdu, heç bir ev, heç bir insan bu tonqallardan ziyan çəkmirdi. Yaxud da dağlarda, yaldayamacda lopa yandırıb, fırladıb göyə atardılar.

Yadımdadır, uşaq idim. Kənddə qonum-qonşu yığışıb bayram tonqalı yandırmışdılar. Böyüklər də bu iri tonqalların üstündən: "Ağrım-uğrum odlara" deyib tullanırdılar. Mən də cəhd eləyib tullanmaq istədim, ancaq tonqalın böyük olduğunu və alov dilimlərinin göyə bülənd olduğunu görüb dayandım. Bunu görən qonşular tez mənə ürək-dirək verib: "Qorxma, bu çərşənbə tonqalıdır, hoppan, adamı yandırmaz, çərşənbə tonqalının üstündən tullanarlar. Oda düşsən də yanmazsan", – dedilər.

Bu sözlərdən sonra özümü oda toxudum, demək olar ki, odun içindən atlanıb keçdim. Doğrudan da, mənə heç bir şey olmadı və bundan sonra daha da cəsarətlə odun üstündən o tərəf-bu tərəfə sıçrayıb keçdim. Bu fakt həm də onu göstərirdi ki, yuxarıda misal gətirdiyim M.Eliadenin fikirlərindəki şamanları közərmiş kömürün yandırmaması ilə müqəddəs çərşənbə odunun bayram keçirənləri yandırmaması inamı üst-üstə düşür. Üstəlik, həmin məqamda bayram iştirakçıları "Odun sahibi" olan şamanlarsayağı şamanlıq aktına girmiş olurlar. Bir də bunlarla yanaşı, bu zaman od çərşənbəsi (ümumiyyətlə, çərşənbə odu) öz odu ilə insanları "ruha" çevirir, yəni ruha çevrilmə dedikdə insan ruhən təmizlənir, mənəvi gücə yiyələnir, mənən-ruhən güc toplayır, daxilən arınıb-duruluraq yeni mənəvi abhavaya köklənir, sağlam ruha yüklənir.



Günəşi, odu həyat, dirilik mənbəyi hesab edən ulularımızın mifik dünyagörüşündən də bu, təsirsiz ötüşməyib. Azərbaycan mifoloji mətnlərindən birində deyilir: "Cinnər, əjdahalar Günün düşmənidirlər. Ona hücum edib boğmağa çalışırdılar. O zaman Günəşlə cinlər, əjdahalar arasında bərk dava düşür. Amma Günəş tək, cinnər, əjdahalar çox. Günəşin gücü bu davada tükənməyə başlayır. Onun qüvvəsi qurtardıqca cinnər, əjdahalar Günəşi daha da boğmağa çalışırlar. Günəşin tək olduğunu, boğulduğunu görən adamlar ona kömək etməyə başlayırlar. Adamların yerdəki hücumunu görən cinnər, əjdahalar qorxub tez Günəşi buraxırlar. O saat da qaçıb dağılışırlar. Davada Günəş çox boğulduğundan rəngini qızıl qan gəlir. Ona görə də Günəş tutulandan sonra rəngi qıpqırmızı olur".

Günəşlə bağlı animistik təsəvvürlər aydın görünür. Cinlər, əjdahalar qara qüvvələrin təmsilçisidirlər və işığın, nurun, odun daşıyıcısı olan Günəşə qarşı vuruşurlar. Bu zaman adamlar Günəşin tərəfinə keçməklə onu məğlubiyyətdən xilas edirlər. Mifoloji mətn Azərbaycan xalqının mifik təsəvvürünü əks etdirdiyindən, mətndəki adamlar da xalqımızı ifadə edir. Deməli, xalqımız Günəşə, oda tapınmaqla onu dirilik mənbəyi hesab etməklə yanaşı, eyni zamanda Günəşin müdafiəçisi kimi çıxış edib, öz növbəsində Günəşi canlı simada təsəvvür edib və onu yad qüvvələrdən qorumağa qalxıb. Bu mənada ilaxır çərşənbələrdən birinin Günəşə, Günəşin bəlgəsi sayılan oda bağlanması da xalqımızın bu kimi müqəddəs mifik baxışlarını ortaya qoyur".

"Tədqiqatçı Kəmalə Osmanova "Xalq mərasimləri və nəğmələri" kitabında professor Azad Nəbiyevə istinad etməklə yazır: "Od çərşənbəsi əski görüşlərlə bağlıdır... Odlu çərşənbədə adamlar sübh tezdən hündür bir təpənin üstündə tonqal qalayardılar. Həmin tonqalın dövrəsinə toplaşıb Günəşin doğmasını gözləyərdilər. Elə ki, Günəş doğdu, hamı onu salamlayan "Qodu Xan" nəğməsini oxuyar, tonqalın başında dövrə vurar, sonra da hərə tonqaldan öz məşəlini yandırıb ocaqlarını alışdırmaq üçün evə tələsərdilər... Adamlar tonqalın dövrəsində dolandıqca, eləcə də gəlib öz ocaqlarını yandırdıqca oxuyardılar:

***Qodu Xan, Qodu Xan,***
***Söndürmə odu Xan.***
***At üstə od gətir,***
***Ulusa od gətir.***
***Sözü bal Qodu Xan,***
***Özü al Qodu Xan.***

***Qodu Xan daldadır,***
***Al atı yaldadır.***
***Don tikək Qoduya,***
***Arx çəkək Qoduya.***
***Sözü bal Qodu Xan,***
***Özü al Qodu Xan.***

"Qodu" əksikliklərlə, istiliklə əlaqədar olduğundan, o güləndə gün çıxır, ağlayanda yağış yağır, soyuq olur. Burdan apaydın görünür ki, Qodu iki əksliyin başlanğıcıdır".

Qodu nəğməsinin məzmunundan bir daha anlaşılır ki, Qodu öz mahiyyətində odu və odu söndürə biləcək yağışı (suyu) əks etdirməklə əksliyin vəhdətini işarələyir. Bu da yenə birbaşa xaos-kosmos dünyalarının qarşı-qarşıya dayanmasını simvollaşdırır. Su ünsürü qışı, od ünsürü baharı (Novruzu) təmsil edir. Qışdan yaza keçid nöqtələrindən biri olan od çərşənbəsində Qoduya müraciətlə "Söndürmə odu, Xan" söylənməsi də insanların yaz günəşinin bəlgəsi olan odun sönməməsi arzusunun inikasıdır. Amma eyni zamanda düşünəndə ki, bu zaman aralığı yeni həyatın gəlişi ərəfəsidir, bu ərəfədə odla su bu mübarizə zəminində həm də birləşib birlik yaradır; yeni həyatın ilkin rüşeymlərini təşkil edib, odla su başlanğıcları olmaqla diriliyi – yeni canın, yeni həyatın nüvəsini yaradırlar.

Yuxarıda oxuduğumuz od çərşənbəsi ritualının keçirilməsindən bir daha aydın olur ki, od çərşənbəsində məqsəd insanların od əldə etməsi, odu qoruyub saxlaması və od-ocaqlarını yandırmaqla öz diriliklərini təmin etməkdir" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***





# Biokütlədən bioenerjini necə almalı?

***Heyvan peyinindən bioqazın necə əldə edilməsi məsələsi son illər insanları ən çox maraqlandıran məsələlərdən biridir. Heyvan peyinindən bioqaz istehsalı xüsusi təmizlənmə üsulları və texnikası ilə daha çox Avropa Birliyi ölkələrində inkişaf etdirilərək yerli enerji istehsalı resurslarına mühüm töhfə verir. Hazırda Almaniya, Fransa, İsveçrə, İtaliya, Avstriya bu istiqamətdə çox iş görüb. Təkcə Almaniyada 3500-dən çox bioqaz qurğusu heyvandarlıq və kənd təsərrüfatı tullantılarından bioqaz istehsal edir. Məsələn, Danimarka heyvan peyinini digər üzvi tullantılarla qarışdıraraq bioqaz əldə edən ən populyar ölkələrdən biridir.***




Biokütlələrdən alınan bioqaz-metan qazı istehsalı imkanları bizim ölkəmizdə də var. İstənilən maldarlıq, heyvandarlıq ferması yaxınlığında bu enerjidən istifadə üçün imkan yaratmaq və qaz əldə etmək olar. Əgər heyvan peyinindən şüurlu şəkildə istifadə olunarsa, bunun təbiətə bir çox faydaları ola bilər. Digər alternativ enerji növlərindən fərqli olaraq bioenerji təbiətə, cəmiyyətə verdiyi faydalar baxımından daha üstündür. Bu enerji növü daha çox təbii qazın alternatividir, çünki bioqaz qurğularının istehsal etdiyi enerji metan qazından ibarətdir və bu da təbii qaz kimi yanar qazdı. Amma o təbii qaza nisbətən daha ağır yanacaqdır, yəni onun verdiyi istilik enerjisi daha çoxdur, istilik əmsalı daha üstündür.

Digər ölkələrdən fərqli olaraq Danimarkada mərkəzləşdirilmiş bioqaz qurğuları tikilib. Təsərrüfatlardan toplanan tullantıları mərkəzi bioqaz qurğularında qaz hasil etmək üçün istifadə etdikdən sonra sistem bioqazı mərkəzi təbii qaz şəbəkəsinə verir və yerdə qalan kütlədən yaranan gübrəni fermerlərə paylayır. 1500-2500 baş mal-qara peyini ilə bioqaz emal edən qurğu gündə 10.000-15.000 m³ arasında bioqaz istehsal edə bilir. Bioqaz enerjisinin xüsusi bir xətlərlə çəkilişinə ehtiyac yoxdur. Lokal qurğulardan istifadə olunur və elə mövcud olduğu yerdə də istifadəsi mümkündür. Təbii qazın isə yüksək dağlıq regionlara təchizatında bildiyimiz çətinliklər var. Relyef, uzaqlıq məsələləri, ümumiyyətlə daha çox vəsait tələb olunur. Amma bu vəsaitin tələb olunmadığı bir enerji növü axtarmalı olsaq, bioqaz enerjisinin üzərində dayanmalıyıq. Bioqaz enerjisinin istənilən heyvandarlıq təsərrüfatı olan yerlərdə tətbiqi mümkündür. Yəni heyvandarlıq təsərrüfatlarının tullantısını, peyinini bioqaz qurğularında xüsusi bir prosesə məruz qoymaqla əldə edilir.

Bu prosesdə peyinin tərkibindəki biorqanizmlər, mikroorqanizmlər aktivləşdirilir. Onlar da bir neçə qrupa bölünürlər - psixofillər, termofillər, mezofillər. Mezofillər ikinci yerdədir, temperatur tələbatına görə. Termofillər isə 45 dərəcədən yuxarıda aktivləşirlər. Psixofillər və mezofillər daha aşağı temperaturlarda aktivləşə bilirlər və bunların hər hansı bir reaktorda aktivləşdirilməsi yolu ilə peyindən əmələ gətirdiyi qaz, təbii qazın alternativ olaraq bir yanacaq kimi istifadə oluna bilər. Bu üsul meşələrin qorunmasında ən faydalı resursdur. Digər tərəfdən bioqaz qurğularının əsas faydası heyvandarlıq təsərrüfatlarının tullantısının ətraf mühitə verdiyi zərərin qarşısını ala bilməsidir. Bir çox ekoloqlar hətta bu zərərin qarşısını almaq üçün heyvandarlıq təsərrüfatlarının azaldılmasını, bir çoxları isə ümumiyyətlə ixtisarına dair çağırışlar edirlər.

Heyvan tullantılarından bioqaz əldə etmək yaşıl dünya üçün vacib adımdır. Bioqazla əldə edilən elektrik və istilik istehsalı iqtisadi səmərəliliyi təmin edir. Emal tullantıları gübrə kimi istifadə edilə bilər, üstəlik bioqaz hasilatından sonra əldə edilən gübrələrdən istifadə etmək daha asandır. Qlobal istiləşməyə səbəb olan ən mühüm amil olan istixana qazı emissiyaları bu üsulu tətbiq etməklə azalır.

Metan ən təhlükəli istixana qazlarından biridir. Heyvan tullantılarından atmosferə atılan metan qazı eyni həcmdə CO2-dən 20 dəfə çox istixana qazı effektinə malikdir. Peyin atmosferə açıq şəkildə atıldığı zaman orada gedən xüsusi proseslər nəticəsində ayrılan metan qazı atmosferin yuxarı qatlarına qalxır və istixana effekti deyilən problemin yaranması ilə nəticələnir. Lakin bioqaz qurğularında əldə edilən metan yandırılaraq CO2-yə çevrilir, yəni zərəri 20 dəfə azaldılır. Çox ucuz və ekoloji cəhətdən təmiz bir tullantı olan biokütlə tək peyin yox, digər oxşar məişət və kənd təsərrüfatı tullantıları da ola bilər. Bu yolla süni gübrələrdən asılılığı azaltmaq da olar.

Bioqaz qurğularının daha bir faydası isə həmin istifadə edilən peyindəki mikroorqanizmlər o peyini həzm edərək yeməsi və yenidən ifraz etməsidir. Həmin peyin artıq peyin olmaqdan çıxaraq bioqumusa çevrilir. Bioqumus isə ən faydalı və ən qiymətli gübrədir. Onun Avropadakı 20 il bundan əvvəlki qiyməti 4000 evro idi. İndiki qiyməti düzü necədir, onu bilmirəm, amma yəqin ki, bu son bahalaşmalar, inflyasiya bioqumusun da qiymətində artıma səbəb olub. Yəni bu çox faydalı bir gübrə növüdür və həmin biokütlə enerjisi ilə əldə eləmək olur. Digər tərəfdən isə təbii qaz xətlərinin çəkilişinin tələb etdiyi artıq xərclərdən yaxa qurtarmış oluruq.

Bioqaz qurğusu qaz mühərriki və generatoru olan kogenerasiya qurğusu vasitəsilə elektrik enerjisi də istehsal edir. Belə olanda benzinlə işləyən mühərriklər bioqazla işləyir və generatorları idarə edir. Bu elektrik enerjisinin kiçik bir hissəsi obyektin öz ehtiyaclarına yönəldilir. Məişət cihazlarına, məsələn mətbəxdəki mikser və ya soba, su nasosu, televizor kimi avadanlıqlarda istifadə üçün istifadə olunur. Qalan elektrik enerjisi satıla, ümumi şəbəkəyə verilə bilər. Hətta satılmasa belə evin, müəssisənin enerji təminatı pulsuz başa gəlir.

Bioqaz istehsalında heyvan peyini ilə yanaşı kənd təsərrüfatı tullantıları, toyuq, qaz, ördək peyini də istifadə edilə bilər. Tövlədə gündəlik yığılan heyvan peyini nasosla balans çəninə ötürülür, çənə yerləşdirilən nasosla isə həmin peyin müəyyən konsentrasiyaya uyğun olaraq bioqaz zirzəmisi adlanan ayırma çəninə vurulur. Bioqazın neçə günə əmələ gəlməsinə gəlincə, bioqaz zirzəmisində təxminən 24 gün saxlanılan və emal edilən heyvan tullantıları tərkibində 65% metan olan bioqaz əmələ gətirir, o zaman təmizlənmiş tullantılar zirzəmidən sorularaq bufer çəninə göndərilir, yəni yaranmış maddə axın boyunca yuxarı göndərilir və ayırıcı qurğuya vurulur, burada isə qaz kütlədən ayrılır. Ayırıcıdan ayrıldıqdan sonra yerdə qalan kütlə gübrə kimi maye formada əkin sahələrinə göndərilir. 1 ton mal-qara peyinindən 33 m³ bioqaz, 1 ton quş peyinindən 78 m³, 1 ton qoyun peyinindən 58 m³ bioqaz hasil edilə bilər.

***Lalə Mehralı***



# "Neft yalnız iqtisadi amil deyil, eyni zamanda siyasi amildir"

*"Bir sıra ölkələr OPEC üzvüdür. Dünya da neft ixracını və satışını konkret OPEC adlanan qurum tənzimləyir. Dünya ehtiyatının təxminən 70-80 faizi bu təşkilata üzv olan ölkələrin payına düşür. Həmçinin bazarda satışın təqribən 50 faizi bu ölkələrin payına düşür. Bu qurum məhz neft hasilatını və satışını tənzimləmək məqsədilə yaradılıb. Həmçinin bu qurum ilk dəfə 1960-cı ildə Bağdad şəhərində 5 ölkənin iştirakçılığı ilə yaranıb. Halhazırda isə qurumda 12 üzv dövlət var.*



Həmçinin OPEC-in daxilində qeyri-üzv dövlətlərdə var. Həmin dövlətlər əsas üzvlərə aid edilməsə də, ümumi müzakirələrdə və tənzimləmə prosesində iştirak edirlər. Azərbaycan da bu dövlətlərdən biridir. Azərbaycan qeyri-üzv dövlətlər sırasında öz fəallığı və bazardakı payı ilə seçilir. Hal-hazırda Azərbaycanın gündəlik neft hasilatı 559 min barel təşkil edir ki. Bu da həmin üzv və qeyri-üzv OPEC təşkilatlarının birgə müəyyən etdiyi kvotalara əsaslanır. Yəni məhz bu cür kvotaların müəyyən olunması nəticəsində dünya bazarında neftin qiyməti tənzimlənir". Bu sözləri Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc SİA-ya açıqlamasında deyib.

Onun sözlərinə görə, neftin qiymətinin tənzimlənməsi həm dünya da neft qiymətinin ucuzlaşmasının qarşısını almaq, həm də neft hasilatının normallaşması və tənzimlənməsi məqsədi daşıyır: "Dünya da ortalama təqribən gündəlik neft tələbatı 3 mlrd barel təşkil edir. Bu da çox böyük həcmdir. Həmçinin bu həmin dövlətlər arasında kvotalara və istehsal güclərinə uyğun şəkildə bölüşdürülür. Bu bölgü dünya siyasətində olduqca böyük əhəmiyyətə malikdir. Buna nümunə olaraq deyə bilərəm ki, keçmiş Sovet İttifaqı Əfqanıstana hücüm etdiyi zaman, OPEC üzvü olan təşkilatların qərarı ilə neft hasilatı bazarda artırılmış və neftin qiyməti hasilat artdığına 15 dollara düşmüşdür. Bu da həmin dövrdə Sovet dövlətinin büdcəsinə çox böyük zərər vurmuşdur. Bir çox dövlətlərin büdcələri məhz neft hasilatından və satışından ibarətdir. Bu yanaşma dünya siyasətində neft amilinin mövqeyini daha da aydın şəkildə ortaya qoymuş olur. Neft yalnız iqtisadi amil deyil, eyni zamanda siyasi amildir. Yəni biz yalnız ayrı-ayrı dövlətlərinin büdcəsinin formalaşmasında neft satışından istifadəni nəzərə almamalıyıq. Eyni zamanda neft həmin dövlətin gücüdür və dünya siyasətinə, iqtisadiyyatına təsiri deməkdir. Bununla yanaşı məhz büdcəsi neftdən asılı olan yaxud neftin satışın həmin dövlətin büdcəsində əhəmiyyət kəsb etdiyi ölkələrdə də hər hansı bir siyasi qərar qəbul etdikdə, bu amili nəzərə almaları tövsiyyə olunur. Əks təqdirdə dünya birliyi neftin qiymətinin aşağı salınması ilə həmin dövlətin büdcəsinə və iqtisadiyyatına zərbə vurmaq siyasətini yeridir".

Vüqar Oruc həmçinin qeyd edib ki, hal-hazırda dünyada vahid siyasi mövqe olmadığına görə, neft amilindən istifadə o qədər də gözlənilən nəticəni verməyə bilər: "Yəni ümumi razılaşmalarda bəzi dövlətlərin fərqli mövqe nümayiş etdirilməsi nəticəsində neftin qiymətinin tənzimlənnməsində istənilən nəticə əldə olunmaya bilər. Hal-hazırda bu prosesin siyasi meydanda istifadəsi konkret probleminin həllində İran əsas hədəflərdən biri kimi çıxış edə bilər. Eyni zamanda hər kəsə məlumdur ki, Amerika neft amilindən çox ciddi şəkildə istifadə edir. Çox böyük hasilatlardan biri olsa da, bazara satış məsələsində çox ehtiyatlı davranır. Bu da neftin qiymətinin hələ də orta səviyyədə olduqlarının əsas qarantilərindən biridir. Neft amili hər ölkə üçün əhəmiyyətli amildir. Daha optimal yol xam neftin emalını təmin etməkdir. Çünki emal olunmuş neft daha çox tələb olunandır və qiyməti isə bazarda bahadır".

***Xeyrənsə Piriyeva***

# Əli Kərimlinin ABŞ-dakı qüvvələrin bostanına daş atması təəccüb doğurur

*İllərlə ABŞ-ın qaranlıq dairələrinin maddi və mənəvi yardımları ilə bəslənən Əli Kərimli indi onlara təpik atır*



***Dağıdıcı müxalifətin əsas simalarının siyasi riyakarlığı haqqında uzun-uzadı danışmağa və ya dəlil, sübut göstərməyə ehtiyac yoxdur. "Görünən dağa nə bələdçi" el məsələində deyildiyi kimi Əli Kərimlinin, İsa Qəmbərin, Cəmil Həsənlinin və digərlərinin üzdə bir söz, arxada başqa bir mövqe sərgiləmələri, fəaliyyət yolu tutmaları hər kəsə bəlli olan faktdır.***

Ona görə də, yaxın ətrafı belə dağıdıcı ünsürlərə inamsız yanaşırlar. Dəfələrlə Əli Kərimli İsa Qəmbərlə əməkdaşlığa dair razılaşmalar əldə edib, müxtəlifyönümlü blok və qurumlar yaradıblar. Lakin az sonra həmin bloklar tarixin zibilliyinə atılıb. Səbəbi də tərəflərin bir-birini qəbul etməməsi və biri digərindən öndə olmaq istəyi olub. Hətta Ə.Kərimli bir qədər məsafə saxladığı müxaliflərlə bir məqamda gözlənilmədən onlara doğru addım atıb, isti əlaqələr qurduğunu nümayiş etdirib. Belə şəxslər sırasında REAL partiyasının keçmiş sədri İlqar Məmmədov, Haqq və Ədalət partiyasının sədri Əli İnsanov, Ümid partiyasının sədri İqbal Ağazadə və digərləri olub.

Ancaq sular durulduqca məlum olub ki, Ə.Kərimli məqsədli şəkildə onlara qucaq açıb. Yəni birinci halda ətrafını gücləndirməyə ümid edib, ikincisi isə xaricdən əlavə qrantlar almağa çalışıb. REAL partiyasının keçmiş sədri İlqar Məmmədov, Haqq və Ədalət partiyasının sədri Əli İnsanov, Ümid partiyasının sədri İqbal Ağazadə və digərləri Ə.Kərimlinin məkrli planından xəbərdar olduqdan sonra münasibətlər pozulub. İqbal Ağazadə, Əli İnsanov, İlqar Məmmədov və digərləri işlək alət olmadıqlarını nümayiş etdirmək üçün Ə.Kərimliyə qarşı sərt mövqe nümayiş etdirdilər. Bununla kifayətlənməyən təhqir edilən zümrə Ə.Kərimlini satqın, xəyanətkar adlandırmaqla yanaşı, onunla əlaqələrini tamamilə kəsdiklərini bəyan ediblər. Bütün bu kimi ortada olan faktlar təsdiq edir ki, Ə.Kərimli müxalifətin ən hiyləgər, öz mənfəti üçün hər cür çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinməyən ünsürdür. Elə situasiya yarana bilir ki, bu zaman Ə.Kərimli illərlə ona maddi və mənəvi yardımlar göstərən ağalarına belə təpik atır, onları aşağılamaqdan, gözdən salmaqdan çəkinməyir. Son vaxtlar onun ABŞ-ın indiki prezidenti Donald Trampın və milyarder İlon Maskın ünvanına səsləndirdiyi ittihamlar daha diqqətçəkən və maraqlı görünür.

## Əli Kərimli ABŞ-ın qaranlıq dairələri ilə əlaqəsini gizlətməyə çalışır

Dəfələrlə Əli Kərimli və ətrafında dolaşan trollar ABŞ-ın hakimiyyət orqanları haqqında tərifli məqalələr dərc edib, ütülü fikirlər səsləndiriblər. Ə.Kərimli o şəxsdir ki, Baydeni, Obamanı, eləcə də D. Trampı (birinci prezidentlik dövründə) dünya ölkələrində azad və demokratik cəmiyyətlərin qurulmasında fədakar liderlər adlandırmışdır. İndi isə Ə.Kərimli əsl simasını nümayiş etdirir. Bildirir ki, Tramp demokratik dünyanın qurulmasına təhdid siyasəti aparır. Bir qədər də dərinə gedən Ə.Kərimli ABŞ nümayəndələr palatasının 40-a yaxın üzvünün Trampa qarşı impiçtment məsələsinin Konqresdə müzakirə edilməsi təklifinin, ABŞ xalqının maraqlarını ifadə etdiyini bildirib. Sual yaranır, nə baş verdi ki, Ə.Kərimli illərlə maddi və mənəvi yardımlar aldığı ABŞ-ın qaranlıq dairələrinə, müəyyən şəbəkələrinə, fondlarına qarşı ittihamlar irəli sürməyə başlayıb? Səthi araşdırma aparmaqla məlum olur ki, Ə.Kərimlini mövqeyini 180 dərəcə dəyişməyə məcbur edən, USAİD-in müəyyən layihələri maliyyələşdirməkdən imtina etməsidir. Daha doğrusu D.Trampın USAİD-i "görünməmiş miqyasda korrupsiyada" ittiham etməsi, İ.Maskın USAİD-i "cinayətkar təşkilat" adlandırması çoxları kimi Ə.Kərimlinin də narazılığına səbəb olub. Bu arada USAİD-in Azərbaycanda da fəaliyyətinin dayandırılmasına qərara verilib. Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə məlumat verib. O bildirib ki, ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Azərbaycanda fəaliyyətinin dayandırılmasına dair ABŞ-a bildiriş göndərildiyini bildirib: "USAİD-in ölkədə fəaliyyət göstərməsi üçün hüquqi əsas olmadığı və fəaliyyətini dayandırması barədə bildiriş ABŞ tərəfinə rəsmən göndərilib".

Mövcud faktlar və araşdırmalarla sübuta yetirilir ki, USAİD humanitar fəaliyyət adı altında Azərbaycanın dağıdıcı müxalifətinə, müstəqil media adı altında sifarişli fəaliyyət yolu tutan Meydan TV, Abzaz Media, Toplum TV kimi internet TV-lərə, saytlara və siyasiləşmiş QHT-lərə milyonlarla dollar yardımlar göstərib. Maliyyə dəstəyinin göstərilməsi ilə əsas hədəf onlar vasitəsi ilə Azərbaycanın daxili aləminə təsir göstərmək olub. Pul ayırdıqları mediaları "yeganə müstəqil media" kimi təqdim etmək və qanunsuz fəaliyyətə qarşı dövlət sanksiyalarını "söz azadlığı və müstəqil mətbuatın boğulması" kimi qələmə vermək niyyətində olub. Araşdırmalar əsasında məlum olub ki, USAİD Azərbaycanda çirkin niyyətini geniş formada qurmağa çalışıb. Hədəfləri əsasən ölkə rəhbərliyinin hədəfə alınması, Ermənistanın işğalı və Qarabağdakı rejimin mövcudluğuna "humanitar" don geyindirilməsi (bu, xüsusilə QHT-lərin Laçın yolundakı aksiyasını "humanitar fəlakət" kimi təqdim edilməsində özünü göstərmişdi), işğalçı rejimin legitimləşdirilməsinə cəhd (S.Pauerin Vardanyanla münasibətləri və korrupsiya sxemləri, Vardanyanın USAİD tərəfindən media, o cümlədən "BBC" tərəfindən təbliği), Ermənistanın Rusiyaya qarşı sanksiyaları pozması və reeksport faktlarının gizlədilməsi, əvəzində Azərbaycanın "Rusiya qazını gizli yolla Avropaya çıxaran ölkə" kimi təqdim edilməsi, Azərbaycanın etnik təmizləmə aparan ölkə kimi təqdim olunması, Azərbaycanın "diktatura və avtoritar rejim" kimi, Ermənistanın isə "demokratik ölkə" kimi təqdim olunması, ölkədə keçirilən azad, demokratik seçkilərin gözdən salınması və "saxtalaşdırılma"ya dair əsassız ittihamlar, sosial problemlərin siyasiləşdirilməsi və vətəndaş qarşıdurmasının yaradılmasına cəhdlər olub. Bu kimi pozucu niyyətlərin gerçəkləşdirilməsinə cəhdlər də Əli Kərimli, Cəmil Həsənli və digər dağıdıcı müxalifətin təmsilçiləri də fəallıq göstəriblər. Aldıqları qrantlar qarşılığında Əli Kərimli, Cəmil Həsənli və onların trolları verilən tapşırıqları, göstərişləri böyük həvəslə və fəallıqla yerinə yetiriblər. İndi isə uzun illər verilən qrantlar kəsilir. Bu isə Ə.Kərimli üçün bədbəxtçilik deməkdir. Çünki pul olmasa, o, aktiv fəaliyyət göstərə bilməz.

## Əli Kərimli statusu ilə elə təsəvvür yaratmağa çalışır ki, guya Zelenskinin düşdüyü acınacaqlı vəziyyətindən üzülür

AXCP sədri Əli Kərimli uzun illər ABŞ-ın qaranlıq dairələri ilə geniş və əhatəli əməkdaşlıq edib. Hər zaman ABŞ-ın Azərbaycana qarşı qərəzli mövqe sərgiləyən fondlarından maliyyə yardımları almaqla ölkəmizdə icazəsiz aksiyalar keçirməyə çalışıb, saytlara, internet TV-lərə verdiyi açıqlamalarında dövlətimizin maraqlarına qarşı ittihamlar səsləndirib. Hazırda isə yuxarıda qeyd etdiyimiz kimi əks mövqe nümayiş etdirir. ABŞ-ı, onun prezidenti D.Trampı tənqid edir, siyasətini demokratik dünyanın qurulmasına qarşı təhdid adlandırır. Dünənə qədər Ukrayna prezidenti V. Zelenskini heçə sayan Ə.Kərimli indi fərqli fikirlər səsləndirir. Fevralın 28-də Ağ evdə baş tutan uğursuz görüşdən sonra Ə.Kərimli Zelenskinin Tramp üzərində mənəvi qələbə qazandığını qeyd edir. Onu da bildirir ki, "Zelenski qəhrəmandır və Zelenski dəfələrlə ölümlə üz-üzə gəlib, yalnız şəxsi cəsarəti və nümunəsilə xalqını həmin ağır zamanlarda kənardan labüd görünən acı məğlubiyyətdən xilas edib".

Bir sözlə, Ə.Kərimli sosial şəbəkə hesabında paylaşımın da Trampı aşağılamağa və Zelenskini yüksəltməyə çalışıb. Ancaq həqiqət ondan ibarətdir ki, əslində Ə.Kərimli USAİD-i bağladığına və bununla da AXCP-yə ayrılan qrantlar kəsildiyinə görə, öz ağılı ilə Trampdan qisas almağa çalışır. Lakin unutmaq olmaz ki, Ə.Kərimli stabil mövqeyə malik deyil. Onun üçün şəxsi mənafeyi hər şeydən önəmlidir. Bu gün əgər ABŞ-ın qaranlıq dairələri maraqlarına zidd olmayan qərar veribsə və müvafiq olaraq Ə.Kərimli ABŞ-a qarşı ittihamlar və iddialar irəli sürürsə, sabah fərqli mövqe sərgiləyə bilər. Yəni ABŞ-ın qaranlıq dairələri ona "layihə təklifini" göndər, mesajını ünvanlasalar dərhal əski fəaliyyətini bərpa edəcək. Bunların umacı belə yoğrulub- simasız və satqın. Simasız və satqın insanda heç zaman qürur və ləyaqət hissi olmur.

***İLHAM ƏLİYEV***

# “Məktəblərdə valideynlərdən pul yığılması problemi illərdir həll olunmamış qalır”




***“İlk növbədə qeyd edim ki, təhsil sistemində şəffaflıq və korrupsiyanın qarşısının alınması hər bir ölkə üçün prioritet məsələlərdən biridir. Azərbaycanda isə məktəblərdə valideynlərdən pul yığılması problemi illərdir həll olunmamış qalır”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.***

Kamran Əsədov sözlərinə belə davam edib: “Rəsmi açıqlamalara görə, Təhsil Nazirliyi və onun rəhbəri Emin Əmrullayev bu cür halların qarşısının alınması üçün addımlar atır. Lakin reallıq fərqlidir. 8 Mart kimi bayramlarda müəllimlər üçün pul yığılması, hədiyyələrin alınması və bəzi hallarda direktor və məktəb rəhbərliyinə baha qiymətli hədiyyələrin təqdim edilməsi təhsil sistemində gizli korrupsiya elementlərindən biri kimi qalır.

Nazirliyin açıqlamaları yalnız formal xarakter daşıyır. Sosial şəbəkələrdə, valideyn qruplarında və müxtəlif forumlarda yayılan məlumatlar açıq şəkildə göstərir ki, məktəblərdə hələ də pul yığımı davam edir. Valideynlərin bəziləri bu prosesə məcburi şəkildə qoşulur, çünki uşaqlarının məktəbdə sıxıntı yaşaya biləcəyindən qorxurlar. Digərləri isə bu prosesi adət halına salaraq öz təşəbbüsləri ilə müəllimlər və direktor üçün bahalı hədiyyələr alırlar. Bu cür halların qarşısı alınmasa, təhsil sistemində qeyri-rəsmi ödənişlər daha da güclənəcək və korrupsiya dərinləşəcək.

Beynəlxalq təcrübəyə baxsaq, inkişaf etmiş ölkələrdə məktəblərdə pul yığımı halları qəti şəkildə qadağan olunur və buna ciddi nəzarət mexanizmləri tətbiq edilir. Məsələn, Finlandiya və Danimarka kimi ölkələrdə təhsil tamamilə dövlət tərəfindən maliyyələşdirilir və məktəblərdə pul yığımı qanunla qadağandır. Müəllimlər üçün hər hansı hədiyyə və ya pul yığımı halları aşkarlanarsa, ciddi hüquqi tədbirlər görülür. Almaniya və Fransa kimi Avropa ölkələrində də məktəblərdə valideynlərdən pul yığılması korrupsiya hesab edilir və qanunla cəzalandırılır.

Türkiyə təcrübəsində də son illərdə bu problemə qarşı ciddi tədbirlər görülüb. Türkiyə Milli Təhsil Nazirliyi məktəblərdə valideynlərdən hər hansı ad altında pul yığılmasını tam qadağan edib. Müəllimlərə hədiyyə alınması yalnız şəxsi təşəbbüslə və maddi yük yaratmadan həyata keçirilə bilər. Əgər məktəb rəhbərliyi və ya müəllimlər valideynlərdən pul tələb edərsə, bu,



**EKSPERT TƏNQİD ETDİ**

qanuni məsuliyyət yaradır.

Azərbaycanın qonşu ölkələrindən biri olan Gürcüstanda da oxşar tədbirlər həyata keçirilib. Son illərdə Gürcüstan hökuməti təhsil sahəsində şəffaflığı artırmaq üçün müxtəlif islahatlar həyata keçirib. Məktəblərdə pul yığımı halları aşkarlanarsa, valideynlər bununla bağlı birbaşa Təhsil Nazirliyinə və Ombudsmana şikayət edə bilərlər. Bu sistem Azərbaycanda tətbiq olunsa, məktəblərdə valideynlərdən pul yığılmasının qarşısını almaq daha asan olar.

Dünyada korrupsiyanın təhsil sisteminə təsiri ilə bağlı müxtəlif statistikalar var. Transparency International təşkilatının 2023-cü il hesabatına görə, təhsil sektorunda korrupsiya halları inkişaf etməkdə olan ölkələrdə daha geniş yayılıb. Statistikaya əsasən, dünyada orta məktəblərdə qeyri-rəsmi ödənişlər və pul yığımı hallarının 60%-dən çoxu Asiya və keçmiş SSRİ ölkələrində baş verir. Ən aşağı korrupsiya səviyyəsi isə Skandinaviya və Şimali Avropa ölkələrində qeydə alınıb.

Azərbaycanda məktəblərdə valideynlərdən pul yığımı ilə bağlı rəsmi statistika mövcud olmasa da, bu problemin geniş yayıldığı açıq-aşkar görünür. Valideynlərin sosial şəbəkələrdə paylaşdığı şikayətlər, məktəblərdə direktor və müəllimlər üçün baha qiymətli hədiyyələrin alınması barədə yayılan xəbərlər bu məsələnin nə qədər ciddi olduğunu sübut edir. Əgər Təhsil Nazirliyi bu halların qarşısını almaqda həqiqətən ciddi olsaydı, konkret tədbirlər görərdi.

Emin Əmrullayevin təhsil naziri olduğu dövrdə bəzi struktur islahatlar həyata keçirilsə də, məktəblərdə pul yığımı ilə bağlı real nəticə əldə edilməyib. Əksinə, bu proses daha sistematik və gizli formaya keçib. Təhsil Nazirliyi hər il bayramlar ərəfəsində “məktəblərdə pul yığmaq olmaz” deyə açıqlamalar versə də, bu açıqlamaların real nəticəsi olmur.

Məktəblərdə valideynlərdən pul yığımı hallarının qarşısını almaq üçün ciddi nəzarət mexanizmləri yaradılmalıdır. Müəllimlər üçün hədiyyə və bayramlarla bağlı ödənişlər qadağan olunmalıdır. Məktəb rəhbərləri və müəllimlər bu prosesdə iştirak edirsə, onların məsuliyyətə cəlb olunması üçün konkret qanuni tədbirlər görülməlidir. Valideynlər üçün isə xüsusi şikayət platformaları yaradılmalı və anonim şəkildə şikayət vermək imkanı təmin edilməlidir.

Bu məsələdə əsas problem dövlətin nəzarət mexanizminin zəif olmasıdır. Əgər Təhsil Nazirliyi real olaraq məktəblərdə pul yığılmasının qarşısını almaq istəyirsə, sadəcə bəyanatlar verməklə kifayətlənməməlidir. Konkret yoxlama mexanizmləri, ictimai monitorinq və valideyn şikayətlərinin hüquqi həlli təmin edilməlidir. Əks halda, Emin Əmrullayevin təhsil sistemində ciddi dəyişikliklər etdiyini iddia etmək mümkün olmayacaq.

Nəticə olaraq, Azərbaycanda məktəblərdə valideynlərdən pul yığılması hələ də geniş yayılmış bir problemdir və bu məsələ ilə bağlı konkret tədbirlər görülmədikcə, sistemin korrupsiyadan təmizlənməsi mümkün olmayacaq. Təhsil Nazirliyi və Emin Əmrullayev real dəyişikliklərə nail olmaq istəyirsə, sadəcə rəsmi açıqlamalarla kifayətlənməməli, məktəblərdə şəffaflığı və hesabatlılığı təmin edəcək ciddi islahatlar həyata keçirməlidir. Əks halda, Azərbaycan təhsilində rüşvətxorluq və qeyri-rəsmi ödənişlər uzun illər boyunca davam edəcək”.

***Ayşən Vəli***

# “Mübarizəni sona qədər davam etdirdim” - ikiqat Paralimpiya çempionu




*Azərbaycan millisinin atleti, ikiqat Paralimpiya çempionu Lamiyə Vəliyevanın SİA-ya müsahibəsini təqdim edirik:*

***- Qazaxıstanın Öskemen (Ust-Kamenoqorsk) şəhərində Olimpiya çempionu Olqa Rıpakova mükafatı uğrunda beynəlxalq yarışda iştirak etmisiz. Yarış barədə nələr deyə bilərsiz?***

- Öskəmendə keçirilən beynəlxalq yarış mənim üçün çox vacib və dəyərli təcrübə oldu. 4x200 metr qarışıq estafet yarışında 1:31.80 nəticə ilə birinci yer tutmaq komandamızın gücünü və birlikdə uğur qazanmaq bacarığımızı göstərdi. Bu qələbə, mənim komanda növbəsindəki bacarığımı və məsuliyyətimi necə yerinə yetirdiyimi də ortaya qoydu. Yarış boyu maksimum sürət və düzgün taktika nümayiş etdirməyə çalışdım ki, komandamıza ən yaxşı nəticəni qazandıraq.

***- Bundan əlavə 400 metr məsafəyə qaçışda göstərdiyiniz 55.78 saniyə nəticə ilə Azərbaycan milli rekordunu yeniləmisiz. Bu cür uğura imza atmaq necə bir hissdir?***

- 400 metr yarışında 55.78 saniyəlik nəticə ilə Azərbaycan milli rekordunu yeniləmək mənim üçün qürurverici anlardan biri idi. Ancaq bu nəticə ilə kifayətlənmirəm, çünki daha yaxşısına qadir olduğumu bilirəm. Hədəfim bu zamanı daha da yaxşılaşdırmaq və beynəlxalq arenada daha güclü çıxışlar etməkdir.

***- Yarış zamanı hansısa çətinlik çəkdinizmi?***

- Yarış zamanı bəzi çətinliklər olsa da, bunlar idmanın bir hissəsidir. Əsas odur ki, bu çətinliklərin öhdəsindən gəlməyi bacardım və mübarizəni sona qədər davam etdirdim.

***- Qarşıda nə kimi planlarınız var?***

- Gələcək planlarıma gəldikdə, qarşıdakı yarışlara ciddi şəkildə hazırlaşıram və performansımı daha da yüksəltmək üçün üzərimdə işləyirəm. Hər yarış mənim üçün yeni bir mərhələdir və hər dəfə özümü daha da inkişaf etdirmək istəyirəm.

***- Hansı yarışlarda iştirak edəcəksiniz ?***

- Hazırda qarşıdakı yarışlar barədə dəqiq bir plan yoxdur, lakin bu ilin ən vacib yarışı İslam Həmrəyliyi Oyunlarıdır və mənim əsas diqqətim də ona yönəlib. Hazırlıq prosesimi maksimum səviyyədə davam etdirirəm ki, orada ən yaxşı nəticəni göstərim.

***- Atanız bildirmişdi ki, əcnəbi bəylə ailə həyatı quracaqsınız. Nə zaman ailə həyatına girməyi düşünürsünüz?***

- Şəxsi həyatımla bağlı suallara isə hələlik cavab vermirəm.

***Banuçiçək Hüseynli***

# "Bu, türk dünyası üçün çox önəmli hadisələrdən biridir"




*Siyasi şərhçi Tural İsmayılovun SİA-ya müsahibəsini təqdim edirik:*

**- Donald Tramp ABŞ-ın 47-ci prezidenti kimi fəaliyyətə başladı. Onun prezidentliyi ölkəsinə və dünyaya nə vəd edir?**

- Donald Trampın birinci prezidentliyi dövründən onun budəfəki prezidentliyi dövründə hansı addımları atacağı ilə bağlı bizdə müəyyən təsəvvürlər var idi. Eyni zamanda respublikaçıların hakimiyyəti dövrü bircə Corc Buş istisna olmaqla həmişə Amerika Birləşmiş Ştatlarının xarici siyasətində daha az müdaxilələr dövrü kimi yadda qalıb. D.Trampın budəfəki prezident seçkilərində verdiyi açıqlamalar bizdə müəyyən ümidlər yaradırdı. Həm də onun səsləndirdiyi fikirlər, müdafiə etdiyi dəyərlər ənənəvi Amerikan imperialist dəyərlərdən tamam kənara çıxırdı. Ona görə də, Azərbaycan Prezidenti Cənab İlham Əliyev açıqlamalarında vurğulayır ki, D.Trampın bölüşdüyü dəyərlər bizim müdafiə etdiyimiz dəyərlərlə bənzərdir. Dünyada fərqli ideologiyalardan istifadə edərək xalqların daxilində təfriqə yaratmaq tezisi haradan çıxıb? Əlbəttə ki, Amerika Birləşmiş Ştatlarından çıxıb. Əvvəlki dövrdə inqilablar törədirdilər. Yaxud da, açıq formada digər ölkələrə hərbi müdaxilələr edirdilər. Amma bu ssenarini 2005-dən sonra dəyişdilər. Artıq 2005-dən sonra biz imperializmin yeni və daha təhlükəli taktikasına şahidlik etdik. Bu da beyin işğalı idi. Yəni ölkələrin, xalqların gənc toplumunun beyninə nüfuz etmək, feminizm, "LGBT" adı altında insanların milli mənsubiyyətini və milli identik şüurunu ələ keçirmək və bu vasitə ilə müxtəlif coğrafiyalarda Amerikan və Qərb neoimperializminin nüfuz agentlərini formalaşdırmaq siyasəti var idi. Bəlkə də indi Qərb cəmiyyətləri üçün absurddur, amma bizim üçün müəyyən qədər proqnozlaşdırılan, eyni zamanda gözlənilməz hadisə odur ki, bu gün D.Trampın hakimiyyəti Amerikanın dünyaya sırımağa çalışdığı ideoloji qəsd planlarını darmadağın edir. Samanta Pauerin rəhbərlik etdiyi USAİD, özünü buraxdığını elan edən PKK-ya qədər, harada terror varsa, orada USAİD-in müəyyən layihəsi var. USAİD-in fondlarından ayrılan qrantların orada təsir dairəsi var.

Bu gün Amerika Birləşmiş Ştatlarının rəhbərliyi özü USAİD-in çirkli fəaliyyətini təftiş edir. Özünün yaratdığı cəhənnəmi ifşa etməklə məşğuldur. Eyni zamanda Trampın hakimiyyətində kifayət qədər ağıllı adamlar təmsil olunur. Bunların da başında təkcə Amerika üçün yox, bütün dünyanın gələcəyi üçün çox önəmli simalardan biri olan Elon Maskdır. Bu gün Amerika Birləşmiş Ştatlarında Trampın yaratmaq istədiyi kimlik iqtisadi kimlikdir. Yəni daha əvvəl Amerika qlobalizm, kosmopolitizm adı altında qlobal şüurda insanlar yetişdirmək istəyirdi. Amma indi Tramp deyir ki, Amerika vətəndaşlarının pulu ilə formalaşmış dövlət büdcəsini xaricdə boş-boş layihələrə xərcləmək lazım deyil: "Bizim üçün önəmli olan Amerikanın iqtisadiyyatı və onun rifahıdır". Bizim regiona qaldıqda isə, 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad etdiyimiz dövrdə Amerikada prezident D.Tramp idi. Onun o vaxtkı dövlət katibi də normal, adekvat açıqlamalar verirdi. Başa düşürdülər ki, Azərbaycan beynəlxalq hüququ təmin edir və öz torpaqlarını işğaldan azad edir. Amma antiterror əməliyyatı keçirdiyimiz dövrdə Amerikada demokratlar hakimiyyətdə idi. Bayden prezident idi. Bilirik ki, Bayden ayaq üstündə heç dayana bilmirdi. Dövləti faktiki olaraq Blinken idarə edirdi. Gördük ki, dünyada necə beynəlxalq hüququ tapdalayırlar. O baxımdan hesab edirəm ki, Trampın hakimiyyəti dövründə bizim bölgə ilə bağlı çox təhlükəli ssenarilərə şahidlik etməyəcəyik.

Nəzərə alanda ki, Gürcüstanda da Xarici Agentlər haqqında Qanun layihəsi qəbul edildikdən sonra Qərb oraya da sistematik şəkildə hücumlar həyata keçirir, Gürcüstanı şantaj edir. Vizasız Gürcüstan vətəndaşlarından Avropa İttifaqı sərhədləri daxilində səyahət etmək imkanlarını mübahisələndirir. Amma Trampın komandasında siyasətə yanaşma daha çox iqtisadi normativlər üzərində qurulub. Kimin nə deməyindən asılı olmayaraq dünyada baş verən müharibələri bitirmək istəyiriksə, tərəflərlə danışmağı bacarmalıyıq. Açıqaydın demək lazımdır ki, Rusiya Ukrayna torpaqlarını işğal edib, Ukrayna torpaqları təhdid olunur. Tramp, onsuz da, bu faktı inkar etmir. Tramp silahların yerə qoyulmasını istəyirsə, Rusiya ilə danışmağı bacarmalıdır.

**- Bu yaxınlarda Tramp Zelenskini diktator adlandırdı. Buna münasibətiniz bizim üçün maraqlı olar. Əslində ABŞ-Ukrayna arasında nə baş verir?**

- Tramp Bayden hakimiyyəti dövründən dövlət büdcəsindən kənara çıxarılmış bütün pulların hesabatını çıxarmaqla məşğul idi. Faktiki olaraq bu gün Amerika Birləşmiş Ştatları Ukraynadan onu tələb edir ki, aldığınız pulları geri qaytarın. Bunu tələb edəndə bilmirlər ki, Ukrayna darmadağın olub? Düzdür, Rusiya ilə Ukrayna arasında anlaşmalardan bəhs olunur. Amma bu gün də aktiv döyüş əməliyyatları davam edir. İstanbul şəhərində Amerika Birləşmiş Ştatlarının konsulluğunda Rusiya və Amerika diplomatları görüş həyata keçiriblər. Amma bu, bir neçə görüşlə həll olunası məsələ deyil. Həm də bölgə ilə bağlı köklü problem həll olunmur. Burada Ukraynanın işğal edilmiş torpaqlarının Ukraynaya geri qaytarılması şərti ilə müqavilə imzalanmayacaq. Yenə də Rusiya tutduğu və işğal etdiyi torpaqlarda qalmış olacaq. Sadəcə aktiv döyüş əməliyyatları dayanacaq. Bu gün yaxın Şərqdə Həmasla İsrail arasındakı qarşıdurmanın kökündə psixoloji, eyni zamanda ideoloji səbəblər də var. Rusiya ilə Ukrayna arasında müharibə başlayana qədər konseptual fərq yox idi. Onlar eyni slavyan kökdən gəliblər. Burada ancaq ərazi münaqişəsidir. Bu da həll olunmayacağı təqdirdə kimin qarantisi var ki, ABŞ-da Tramp, yaxud da, respublikaçılar hakimiyyətdən getdikdən sonra yeni hakimiyyət gələndə bu dəfə Ukraynaya hansı vədlər verəcək, hakimiyyət necə qızışdırılacaq? O baxımdan hesab edirəm ki, bunun fərqindədir. Sadəcə Tramp yaxşı bilir ki, Rusiya ilə dil tapmağı bacarır. Yanvarın 20-dən onun rəsmi seçilməsindən bir ay vaxt keçib. Bu bir ay ərzində Tramp o qədər aktiv müzakirələr, aktiv açıqlamalar verir ki, sanki beş ildir hakimiyyətdədir. Hər gün gündəmdədir, hər gün onun atdığı addımlar, açıqlamalar müzakirə olunur. Adam açıq şəkildə Ukraynanı şantaj edir. Zelenski ən ağır ifadələri işlətdi, çünki iki məsələdə Trampla razılaşmırdı. Birinci məsələ o idi ki, Səudiyyə Ərəbistanında Ukrayna nümayəndələrinin iştirak etmədiyi hansısa görüşdə Rusiya-Ukrayna müzakirəsini mübahisələndirirdi. İkinci məqam da ondan ibarət idi ki, Trampa mesaj verirdi ki, biz Amerika qarşısında hansısa kağıza imza atmamışdıq. Oraya Amerika Birləşmiş Ştatları dövlət olaraq imza atmışdı. Zelenski deyir ki, o sənədləri publikləşdirib göstərə bilər, orada heç bir müddəa yoxdur ki, Ukrayna bunu Amerika Birləşmiş Ştatlarından borc olaraq alır. Amma son üç gün ərzində Amerikanın Ukraynanın təbii sərvətlərini istismar etməsi ilə bağlı Zelenski Amerika Administrasiyasına razılıq verdi.



**- Ukraynanın müharibə nəticəsində dünya iqtisadiyyatına və enerji bazarlarına təsiri necə oldu?**

- Bilirik ki, Ukrayna dünyadakı bir çox məhsulun əsas vətənidir. Özəlliklə dünyanın qida sənayesində taxıl ehtiyatlarında Ukrayna aparıcı yer tutur. Ona görə də Rusiya ilə Ukrayna müharibəsi ilk başlayanda bir çox kasıb Afrika ölkələri və digər coğrafiyalarda ciddi qida problemi, böhranının yaranması ilə bağlı narahatlıq hökm sürürdü. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın qətiyyəti və iradəsi nəticəsində Türkiyə taxıl sazişinin əldə edilməsinə nail oldu. Bu gün boşuna Amerika Birləşmiş Ştatları Ukraynanı sıxışdırmır. Doğurdan da, Ukraynanın çox təbii sərvətləri var. Təəssüflər olsun ki, həmin təbii sərvətlərlə Ukrayna yararlana bilmirdi. Ümumiyyətlə, işğal edilən ərazilər Rusiya tərəfindən istismar edilib. Eyni zamanda müharibə dövründə oradan nə qədər faydalı qazıntıların çıxarılması ilə bağlı ciddi statistik rəqəmlər yoxdur. Bilmirik ki, Ukrayna xalqının nə qədər sərvəti xaricə daşındı, yaxud da çıxarıldı. O baxımdan hesab edirəm ki, coğrafi imkanları məhdud olan ölkələr belə müharibə şəraiti ilə üzləşirsə, bu, qlobal iqtisadiyyatın özü üçün ciddi psixoloji risklər yaradır. Hətta bu risklər çərçivə sazişi imzalanandan sonra da geridə qalmayacaq. Bu gün Ukrayna artıq təbii sərvətlərinin ağası deyil. Bundan əvvəl müharibə ona əngəl olurdu. Ukrayna ona edilən yardımlar fonunda hansı təbii sərvətlərini mübadilə edəcəyi ilə bağlı müzakirələr aparırdısa, ən azından Trampın hakimiyyəti dövründə də o sərvətlərin yiyəsi Ukrayna deyil. Ondan sonra da Ukrayna olacaqmı? Bu, özü də sual altındadır. Müharibə baş verirsə, bir ölkə işğala məruz qalırsa, onun öz təbii sərvətləri ilə dünyadakı iqtisadi proseslərə təsir etmək mexanizminin bir açar yolu var. O da müharibədə qalib gəlməkdir.

**- Ukraynanın təhlükəsizlik zəmanətləri gələcəkdə NATO üzvlüyünə gətirib çıxara bilərmi?**

- Birmənalı şəkildə, xeyr. Biz bilirik ki, Qərbin siyasi və hərbi təsisatları heç bir formada münaqişəli əraziləri daxil etməyəcəklər. Baxmayaraq ki, bu münaqişəyə özləri səbəb olublar. Günümüzün nümunələri var. Birincisi, Gürcüstan nümunəsidir. Gürcüstanın burada ən böyük xalı Gürcüstan vətəndaşlarına Şengen zonasına vizasız daxil olmaq vədi verildi. Amma nəticədə Gürcüstan əraziləri həmin rəngli inqilab fabrikalarının at oynatdığı yerə çevrilmişdi. Harada ipini qoparan Qərb QHT-si var idisə, gəlib Tbilisidən regionun digər ölkələrinə pul ötürürdü. Heç bir münaqişə olmasa da, Türkiyədə həmişə özlərinin yaratdıqları PKK-nı bəhanə edirdilər. Daxili terroru bəhanə edirdilər ki, sizin terrorla mübarizə probleminiz var. Ona görə də, Türkiyəni Avropa İttifaqına üzv etmirdilər. İndi görək bundan sonra Türkiyəyə hansı bəhanələri gətirəcəklər. Heç bir formada Ukraynanı NATO-ya, Avropa İttifaqına üzv etməyəcəklər.

**- Türkiyə PKK-nın silahı buraxması üçün çağırış edib. Bununla bağlı fikirləriniz maraqlıdır.**

- Bu hadisə türk dünyası üçün çox önəmli hadisələrdən biridir. Bununla bağlı yazımda qeyd etmişəm ki, 44 günlük Vətən müharibəsi, həmin dövrdə koronavirusun pik dövrü idi, bütün dünyada qlobal həyəcan ən üst səviyyədə idi, qlobal iqtisadiyyat ciddi təlatümlərlə üz-üzə qalmışdı. Belə bir şəraitdə Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi pandemiyanın yaratdığı qlobal təsirlərə qarşı mübarizə aparırdı. BMT nəzdində Azərbaycan həmin dövrdə vaksin milliyyətçiliyi kimi kasıb Afrika ölkələrinə vaksin verməzkən, Avropa ölkələrinə lazım olandan çox vaksin verməsinə ən çox etiraz edən ölkə idi. Belə qlobal bir problemlə məşğul olunan vəziyyətdə Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. Biz türk dünyasına yeni bir tarix yazdıq. Ondan sonra Türk Dövlətləri Təşkilatı struktur baxımından da yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan Xankəndində antiterror əməliyyatı keçirib öz üçrəngli bayrağını qaldırmaqla Cənubi Qafqazın ürəyinin ortasına qazınmış separatçılıq tikanını tamamilə bölgədən çəkib çıxardı. Bu tarixi hadisədən sonra ikinci türk dünyası üçün önəmli tarixi hadisə baş verir. Bu da Türkiyəni daim təhdid edən PKK separatizminin sona çatmasıdır.

***Söylü Ağazadə***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*



# Yox olan varlıq, var olan yoxluq: Yaradılışın sirri harada gizlənir?

*Yeri sizin ixtiyarınıza verən Odur. Onun hər tərəfində gəzin və Allahın ruzisindən bəhrələnin. Qayıdış da Onadır- Quran, Mülk surəsi, 15*

**(XI YAZI)**

*(əvvəli ötən saylarımızda)*

Ta qədimdən insanlar dünyanın, həyatın, insanın necə əmələ gəməsi haqda baş sındırıblar. Dini kitablarda və qədim mifoloji görüşlərdə bu haqda çox sayda məlumatlar var ki, təəccüblü şəkildə onların çoxu sonralar müasir elm tərəfindən təsdiq olunmuşdur.

Kosmoqonik (dünyanın yaranması haqqında) və antropoqonik (insanın mənşəyi haqqında) miflərdə yaradılışla bağlı əsas məqamlar qeyd olunur: nizamlı elementlərin səmadan ilk ayrılması, dünya okeanı və yerin yaranması, təbiətin əmələ gəlməsi, canlıların yaranması, insanın dünyada peyda olması.

Gəlin baxaq, dünyamızda bioloji həyat nədən və necə təşəkkül tapmışdır. Əvvəlcə, əvvəlki yazılarımızda bəhs etdiyimiz bütün xarici (astronomik) faktorlar təmin olunduqdan sonra, planetimizin özündə də canlı həyatın formalaşmasını və davamlılığını təmin edən faktorlar xüsusi təşkil edilməlidir.

Bunun üçün, dünyanın geoloji, coğrafi, biosferik quruluşu xüsusi plan üzrə son dərəcə yüksək dəqiqliklə təşkil edilməlidir. Burada tempraturdan tutmuş, kimyəvi tərkibə qədər çox faktorlar var ki, biz onların heç də hamısından danışa bilmərik. Belə bir məqalə azı 100 cildlik kitab həcmində olar. O səbəbdən, bəzi əsas məqamları nəzərdən keçirək. Məsələn, temperatur aralığının necə olmalı olduğuna baxaq.

Yerin ekvatoru ilə qütbləri arasında təxminən 100°C temperatur fərqi var. Əgər belə bir temperatur fərqi hamar bir səthdə baş versəydi, sürəti saatda 1000 km-ə çatan tufanlar Yer kürəsini məhv edərdi. Bununla belə, yer üzündə temperatur fərqləri səbəbindən yarana biləcək güclü hava axınlarının qarşısını alacaq dağlar və ya dağ silsilələri, çökəkliklər və dərələr var.

Okeanların mövcudluğu son dərəcə vacibdir. Okeanlar qurudan daha az günəş işığı əks etdirdiklərinə görə qurudan daha çox günəş enerjisi alırlar, lakin bu istiliyi qurudan daha çox öz daxilində bərabər paylayırlar. Bu yolla okeanlar daha isti olan ekvator bölgələrini sərinləyərək onların həddindən artıq istiləşməsinin qarşısını alır, qütb bölgələrinin soyuq sularını isə qızdıraraq, onların çox soyumasının və beləliklə də tamamilə donmasının qarşısını alır. Bundan əlavə, okeanlar karbon qazının həll olunduğu, oksigenin yarandığı kimyəvi su anbarlarına bənzəyir.

İdi isə canlı ailəmin və cansız nəsnələrin lazımi formada əmələ gəlməsi üçün müxtəlif atomların harda, niyə və necə birləşməli olduğunu nəzərdən keçirək.

Havada sərbəst üzən hidrogen və oksigen qazının iki molekulunun bir araya gəlib su əmələ gətirməsi üçün onların atomları toqquşmalıdır. Toqquşma zamanı hidrogen və oksigen molekullarını meydana gətirən bağlar zəifləyir və bu molekulları təşkil edən atomlar birləşərək yeni bir molekul olan su (H2O) əmələ gətirir. Bu toqquşma yalnız çox yüksək temperaturda və yüksək enerji səviyyəsində baş verir. Hazırda Yer kürəsində suyun əmələ gəlməsinə imkan verəcək qədər yüksək temperatur yoxdur. Ona görə də suyun əmələ gəlməsi mümkün deyil. Yer üzündə mövcud olan su Yerin əmələ gəlməsi zamanı yüksək temperatur nəticəsində əmələ gələn sudur. Yəni, bu gün içdiyimiz suyun milyardlarla yaşı var.

İndi isə, canlı və cansız elementlərin fərqini nəzərdən keçirək. Yer üzündə aşkar olunan və varlığı ehtimal olunan 7-8 milyon canlı növündən heç biri xüsusiyyətlərinə görə metal, maşın və ya digər texniki obyektlə müqayisə edilə bilməz.

Tənəffüs, çoxalma, qidalanma və hərəkət artıq bir canlını təyin etmək üçün kifayət deyil. Yalnız canlılar asimmetriya yaratmağa qadirdir. Öz-özünə hərəkət edə bilər, qeyri-adi vəziyyətlərdən qaça və ya onlara uyğunlaşa bilər. Bundan əlavə, öz-özünə sintez edə bilir, yəni özündə olmayan və ya ehtiyac duyduğu maddələri sintez edə bilir.

Bütün canlı varlıqlar və cansız elementlər atom "daş"larından inşa edilmişdir. Atomlar bir araya gəldikdə, birləşərək xüsusi dizaynlar yaradırlar. Yaranan xüsusi dizaynlar, yəni molekullar müxtəlif maddi xüsusiyyətlərin ortaya çıxmasını təmin edir. İçdiyiniz su müəyyən atomların müxtəlif yollarla birləşməsinin nəticəsidir. Bu molekula tək bir atom əlavə edilsə və ondan bir atom çıxarılsa içməli su zəhərə çevrilə bilər. Eyni atomların bir-birinə müxtəlif yollarla bağlanması molekulun rəngini, dadını, formasını, kimyəvi tərkibini dəyişdirə bilir. Adi karbon atomlarının konfiqrurasiyasından asılı olaraq həm almaz meydana gələ bilər, həm də qrafit

Bütün kainat 109 elementin atomlarının bir-biri ilə reaksiya verməsi nəticəsində yaranmışdır. Ancaq uyğun reaksiyanın baş verməsi üçün Uca Yaradanın təyin etdiyi mühüm şərtlərin meydana gəlməsi lazımdır. Oksigen və hidrogen hər dəfə birləşdikdə su əmələ gəlmir. Və ya metalların atomlarının necə gəldi birləşməsi baş versəydi, tərkibi, kütləsi, forması, xüsusiyyətləri başqa cür olardı.

Bir araya gələn iki maddənin atomları dərhal reaksiya verərdi. Belə bir vəziyyətdə bizim oturacaqda belə oturmamız mümkün olmazdı. Çünki kürsünü təşkil edən atomlar bədənimizi təşkil edən atomlarla dərhal reaksiyaya girər, kürsü ilə insanın atomları bir-birinə qarışardı.

Oksigen, karbon, hidrogen və azot canlının əsas komponentləridir. Metallar az miqdarda tapılsa da, bəzi canlılarda su nisbəti 85%-ə çatır: məsələn, meduzalarda su nisbəti dənizin özündəki su nisbətindən yüksəkdir. Digər tərəfdən, mineralın əsas xüsusiyyəti silikonun bolluğu və alüminium, dəmir və natrium kimi metalların həddindən artıq bolluğudur.



Amma canlıları minerallardan fərqləndirən daha əhəmiyyətli bir məqam onların elementlərinin molekulyar düzülüşüdür. Şəkər, yağ turşuları və amin turşuları canlılara xasdır. Dezoksiribonuklein turşusu (DNT) həyatın ən unikal molekuludur; Özünü çoxalda bilən və həyat üçün lazım olan bütün məlumatları ehtiva edən xromosomlar bu molekullardan ibarətdir. Bu ikiqat sarmallı molekul, kodun hərflərinə bənzər şəkildə düzülmüş 6 milyarddan çox molekul ehtiva edir və bunların hamısına genetik kod deyilir. DNT molekulları çox vaxt bu gün məlum olan bütün bioloji yüksək polimerlərin ölçüsünü üstələyir. Hər bir canlının quruluşu onun genetik kodlarında şifrələnmişdir.

Fransız mikrobioloq alim Lui Paster 1864-cü ildə spontan nəslin bir fantaziya olduğunu iddia etdi və bu istiqamətdə elmi müzakirələr və real araşdırmalar o tarixdən etibarən başladı. Əvvəlcə, həyatın başlanğıcı kosmosda axtarıldı; Ulduzlararası panspermiya nəzəriyyəsinə görə, həyat başqa bir ulduzdan bir toxum kimi Yerə gəlib. Buna görə karbonlu meteoritlərdə həyat axtarılırdı. 1864-cü ildə Tuluza yaxınlığındakı Orgueildə düşən meteoritdə çoxlu doymuş karbohidrogenlər tapıldı. Lakin həmin gün belə bir maddə üzərində aparılan analizlər heç bir canlı həyat izi aşkar etməyə imkan vermədi.

Üstəlik, o vaxtdan ulduzlararası mühitdə bioloji maraq kəsb edən ammonyak və metil spirti kimi maddələr tapılıb. Bu kəşflər kosmosda digər həyat formalarının intensiv axtarışlarına səbəb oldu. Bununla belə bu gün dünya alimlərinin qəbul etdiyi ən ciddi fərziyyə həyatın Yerdə başladığı fikridir. Həyat çox güman ki, suda başlayıb; Vulkanların, şimşəklərin və kosmik şüaların verdiyi enerji və canlıların əsas tikinti materialı olan su sayəsində indiki mühitdən çox fərqli bir mühitdə və bir sıra kompleks reaksiyalar nəticəsində yaranmışdır.

Kaliforniya "Santa Cruz" Universitetinin biokimyaçısı David Deamerin fikrincə, həyat hansısa asteroddən püskürmüş molekullar sayəsində ola bilməz. Əksinə, sanki yüksək şüura malik olan molekulların xüsusi hesablanmış konfiqurasiyası nəticəsində bioloji varlıqlar əmələ gələ bilər. "RNT World" ("RNT Dünyası") fərziyyəsinə görə, RNT ibtidai həyat üçün ən vacib molekuldur və yalnız öz işini RNT-dən daha səmərəli yerinə yetirən DNT və zülallar təkamül etdikdə səhnə arxasına keçib.

RNT DNT-yə çox bənzəyir və bu gün hüceyrələrimizin hər birində bir sıra vacib funksiyaları yerinə yetirir, o cümlədən DNT və zülal sintezi arasında keçid molekulu kimi çıxış edir və bəzi genlər üçün açıb-bağlama açarı kimi çıxış edir. /Yerdəki Ekstremal Həyat: 8 Qəribə Məxluq/

Lakin "RNT World" fərziyyəsi RNT-nin necə meydana gəldiyini izah etmir. DNT kimi, RNT də təkrarlanan vahidlərdən, nukleotidlər adlanan minlərlə kiçik molekuldan ibarət olan, çox spesifik, naxışlı şəkildə bir-birinə bağlanmış mürəkkəb bir molekuldur. RNT-nin Yer kürəsində özbaşına yarana biləcəyini düşünən bəzi alimçlər olsa da, digərləri belə bir şeyin baş vermə ehtimalının astronomik həddə olduğunu söyləyirlər.

"Kimyadakı molekulun funksiyasını nəzərə alsaq, belə bir molekulun ortaya çıxması inanılmaz dərəcədə qeyri-mümkündür. Bu, kainatda bir dəfəyə uzun bir atış olardı. "Bu ehtimalı qəbul etmək üçün inanılmaz dərəcədə şanslı olduğumuza inanmalısınız"- Nyu York Universitetinin kimyaçısı Robert Şapiro deyir.

Beləliklə, Yerdə həyatın meydana gəlməsi və ağlagəlməz dərəcədə mükəmməl uyğunluqla formalaşması təsadüfə heç bir yer qoymur.

Bütün bu nizam içərisində həyatın mənşəyi hələ də əsas sual olaraq qalır. Maddi kainatda həyatın forması da maddədən yaradılıb. Lakin anti-maddə texnologiyasından sonra meydana çıxan son elmi kəşflər və kvant fizikasında baş verən ağlagəlməz yeniliklər, molekulyar biologiyanın meydana çıxardığı inanılmaz həqiqətlər, əslində, həyatın yaranmasında yalnız maddi elementlərin iştirak etmədiyini göstərir. Sonda maraqlı bir informasiya: Moskva Nüvə Tədqiqat İnstitutunun alimi İqor Tkaçev deyir ki, institutun alimləri ilk dəfə qaranlıq maddənin nə qədər hissəsinin itdiyini və balanssız parçanın ölçüsünün nə olacağını hesablamağın yolunu tapa bilib. Mövcud vəziyyətə görə kainatın 4.9%-i normal maddə-qalaktika, ulduz və s. görə bildiyimiz şeylərdən, 26.8%-i qaranlıq maddə və 68.3%-i qaranlıq enerjidən ibarətdir.

Görünür ki, həyat yaradanın qüdrəti sayəsində enerjinin maddə formasını alması və ona ruhi kainatdan ruhi informasiyanın ötürülməsi nəticəsində meydana çıxıb. Əvvəllər düşünülürdü ki, yalnız insan şüurludur, digər canlılar şüura malik deyil. Son elmi tədqiqatlarda bütün canlıların şüurlu olduğu aydın olmuşdur. Hətta ən son bölünməz hissəciyin belə şüura malik olduğu artıq elmi faktdır.

"Həqiqəti öyrəndikdə biləcəksən ki, bütün canlı varlıqlar Mənim hissəciklərimdir– onlar Mənim daxilimdədirlər və Mənə mənsubdurlar"- Baqavad-Qita, 4/35

Daha bir məqam- Yaradılışda cansız deyə bir şey yoxdur, bütün kainat, bütün maddələr, bütün atomlar belə canlıdır. Sadəcə, bəziləri azad ruhi proqrama malikdir, bəziləri isə standart proqrama. Ruhi proqrama malik olanlar qərarı özləri verir, standart proqrama malik olanlar isə ilahi mənbədən müəyyənləşdirilmiş və verilmiş əmr üzrə öz vəzifələrini yerinə yetirirlər. Bu haqda növbəti hissələrdə bəhs edəcəyik.

***Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
4 mart
2025-ci il

# Hansı avtomobil modelləri bazarda daha ucuz qiymətə satılır?



***"Taksidə artıq istismar olunmayan modellər bazarda daha ucuz satılır". Bunu SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Elməddin Muradlı deyib.***

Onun sözlərinə görə, 15 il müddəti tətbiqindən sonra bir çox modellər taksidə artıq istismar olunmur: "Burada xüsusən "Toyota" priusları, "Kia" rioları qeyd etmək

AYDINLIQ GƏTİRİLDİ

olar. Və artıq onların bazarda başqa alıcıları var, xüsusən bölgələrə bu maşınlar daha çox satılır. Artıq rayonlarımızda da daha az yanacaq sərf edən digər nəqliyyat vasitələri alıb aparılır. Amma qiymətləri kifayət qədər aşağı düşdü, bu da gözlənilən idi. Çünki bu maşınlar köhnə maşınlardır və taksidə də kifayət qədər istismar olunmuşdu. 12 min manat, 13 min manat, 15 min manat dəyərində Azərbaycana gətirilirdi, amma artıq taksiyə yaramadığına görə bazarda 8 minə, 10 minə artıq almaq olurdu".

*Zeynəb Cəfərli*

# Brejnevin qızıl saatı 35 milyona satışa çıxarıldı

***Volqoqradda Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi olmuş Leonid İliç Brejnevin 73 illik yubileyi münasibətilə ona hədiyyə edilən qızıl "Raketa" saatı 35 milyon rubla (təxminən 678 min manat) satışa çıxarılıb.***



Saat Petrodvorets zavodunda hazırlanıb. Məlumat üçün bildirək ki, bu saat 1983-cü ildə Qalina Leonidovna Brejneva (Leonid İliçin qızı) tərəfindən Mosqorlombardda girov qoyulub və geri alınmayıb", - saat satıcısı bildirib.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Nar" ardıcıl altıncı il Müştəri Loyallığı İndeksində lider oldu

***Sərfəli internet tarifləri və münasib qiymət siyasəti sayəsində "Nar" Müştəri Loyallığı İndeksi (Net Promoter Score – NPS) üzrə 6-cı dəfə ölkənin lider mobil operatoru seçilib.***




Operator ümumi NPS göstəricisi üzrə lider olmaqla yanaşı, Gəncə, Xaçmaz, Sumqayıt, Abşeron və Lənkəran bölgələrində də ən yüksək nəticələri əldə edib. Respondentlərin fikrincə, ən yaxşı mobil internet və sərfəli qiymətləri məhz "Nar" təklif edir. Beynəlxalq araşdırma şirkəti tərəfindən keçirilən sorğuda müxtəlif yaş və peşə qruplarından insanlar iştirak edib və nəticələr "Nar"ın müştəri məmnuniyyətindəki dayanıqlı liderliyini təsdiqləyib.

"Nar" müştəri təcrübəsini gücləndirən əsas amillərdən biri də rahat və əlçatan xidmət təqdim edən mağazalar şəbəkəsidir. 2024-cü il ərzində altı yeni mağaza istifadəyə verilib. Bununla yanaşı, 2019-cu ildən başlanmış mağazaların modernləşdirilməsi başa çatıb və artıq bütün "Nar" mağazaları müasir konsept və rahat müştəri təcrübəsi ilə fərqlənir. Yenilənmiş mağazalar mobil rabitə xidmətləri üçün daha əlverişli mühit yaradır ki, bu da müştəri loyallığına müsbət təsir edir.

"Nar" müştəri məmnuniyyətini yalnız sərfəli xidmətlə deyil, sosial məsuliyyət strategiyası ilə də gücləndirir. Operator 2024-cü ildə təhsil, milli-mənəvi irs, vətənpərvərlik və inklüzivliyə yönəlmiş 40-dan çox sosial layihəyə iki milyon manata yaxın sərmayə yatırıb. Bu təşəbbüslər "Nar"ın cəmiyyət üçün sosial dəyər yaradan bir brend olduğunu göstərir. Şirkət 2025-ci ildə də bu istiqamətdə fəaliyyətini genişləndirməyi hədəfləyir.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən "Nar" son 6 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 2700**